# 26 İYUN SİLAHLI QÜVVƏLƏR GÜNÜDÜR!


RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 122 (8438) CÜMƏ, 26 iyun 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# Azərbaycan Ordusu dünyanın güclü orduları sırasındadır

## ALİ BAŞ KOMANDAN İLHAM ƏLİYEV:

## "Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və ediləcək, heç kimdə bu haqda şübhə olmasın!"

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 25-də Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov və Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin Komandanı general-leytenant Ramiz Tahirov dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevə raport verdilər.

Sonra Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin rəhbər işçiləri ilə operativ müşavirə keçirdi.

Dövlət başçısına hava hücumundan müdafiə sisteminə yeni daxil edilmiş döyüş vasitələri barədə məlumat verildi.

Bildirildi ki, ümumi ərazisi 11 hektardan çox olan hərbi hissənin tikintisinə iki il bundan əvvəl başlanıb və artıq yüksək keyfiyyətlə başa çatdırılıb. Həm zabitlər, həm də əsgərlər üçün yataqxana binaları inşa olunub. Yeməkxana binasında əsgərlərin qidalanması üçün hər cür şərait var. Müasir avadanlıqlarla təchiz olunan tibb məntəqəsi və digər yardımçı otaqlar yaradılıb.

Prezident İlham Əliyev qərargah binasında yaradılan şəraitlə də tanış oldu.

Qeyd edildi ki, döyüş hazırlığı qabiliyyətini təkmilləşdirmək məqsədilə hərbi hissənin ərazisində təlim meydançaları qurulub, ərazi tam abadlaşdırılıb.

Hərbi hissə ilə tanışlıqdan sonra Prezident İlham Əliyev hərbçilərlə görüşdü.

Dövlət başçısı görüşdə nitq söylədi.

*Bax: səh. 4-5*

## Prezident İlham ƏLİYEV: "İlk növbədə, insanların həyatı və onların sağlamlığıdır"

### Pandemiyanın miqyasından asılı olmayaraq, ilin sonuna qədər insanların yaşayış səviyyəsi dəyişməz olaraq qalmalıdır

Altı aydır ki, dünya ölkələri bütün səylərini qlobal problemə çevrilmiş yeni növ koronavirus infeksiyası ilə mübarizəyə yönəltsə də, pandemiyanın qarşısını almaq hələ də mümkün olmamışdır. Əksinə, son zamanlar virus daha aqressiv və aktiv olduğu üçün yoluxmaların sayı, eləcə də ölüm halları artan templə davam edir. Ona görə də əksər ölkələr yenidən xüsusi karantin rejimini sərtləşdirmək, məhdudiyyətlər tətbiq etmək qərarını verib.

Azərbaycanda isə martın 14-dən sosial izolyasiya qaydaları tətbiq olunub, aprelin 5-dən xüsusi karantin rejimi elan edilib. Onu da qeyd edək ki, COVID-19 virusunun yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədi ilə hələ yanvar ayından Prezident İlham Əliyevin tapşırığına əsasən, zəruri qabaqlayıcı tədbirlər görülməyə başlanmışdı. COVID-19 virusunun diaqnostikası, habelə bu xəstəliyin müalicəsi üçün zəruri olan Avropa istehsallı laborator testlər, tibb avadanlığı və ləvazimatlar, qoruyucu vasitələr Azərbaycana gətirilmişdi, ölkədə 20-dən çox laboratoriyanın fəaliyyəti təmin edilmiş, paytaxt və regionlarda xüsusi rejimli xəstəxanalar və karantin zonaları yaradılmışdı.

*Ardı 10-cu səh.*



## Güclü Azərbaycan Ordusu İlham Əliyevin yaratdığı inkişaf nümunələrindən biridir

Bu gün Azərbaycan Ordusunun yaradılmasının 102-ci ili tamam olur. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 22 may 1998-ci ildə imzaladığı müvafiq Fərmanla 1918-ci ildə Əlahiddə Azərbaycan Korpusunun təşkil olunduğu gün - 26 iyun tarixi Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü kimi qeyd olunur.

### Ulu Öndər müasir Azərbaycan Ordusunun qurucusudur

Ordu dövlətin suverenliyini və ərazi bütövlüyünü təmin etmək üçün əsas qüvvə olaraq dövlət quruculuğunun tərkib hissələrindən biridir. Azərbaycanın zəngin dövlətçilik tarixində güclü ordunun yaradılması hər zaman prioritet məsələlərdən olmuşdur.

Müasir Azərbaycan dövlət müstəqilliyinə 1991-ci ildə nail olsa da, vahid komandanlığa əsaslanan nizami və mütəşəkkil, ən əsası müstəqilliyimizə və dövlətçiliyimizə qarşı yarana biləcək hər hansı təhdidin qarşısını almağa qadir ordunun yaradılması Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra mümkün oldu. Bu mənada fəxrlə deyə bilərik ki, Ulu Öndərin rəhbərliyi ilə dövlətçilik ənənələrimizə söykənərək 1993-cü ildən ölkəmizdə həyata keçirilən dövlət quruculuğunun ən şərəfli və parlaq səhifələrindən biri bu gün qüdrətlənən və gücü ilə qürurlandığımız Azərbaycan Ordusudur.

Ulu Öndər Heydər Əliyev görkəmli dövlət xadimi, böyük siyasətçi, həm də peşəkar hərbçi idi. Elə buna görə də Ulu Öndərin hakimiyyətə gəlişindən sonra ordu quruculuğunun diqqətçəkən əsas tərəfi onun yüksək peşəkarlıqla həyata keçirilməsi idi.

*Ardı 8-ci səh.*

## Epidemiya vəziyyəti məhdudlaşdırıcı tədbirləri zəruri edir

### Prezident İlham ƏLİYEV: "Dövlət nəzarəti, ictimai nəzarət, vətəndaşların nizam-intizamı və məsuliyyəti artmalıdır"

Dünyanı bürüyən koronavirus (COVID-19) pandemiyası yer üzünü vahimədə saxlamaqda davam edir. Havaların istiləşməsi nəticəsində virusun azalacağı, yaxud yox olacağı kimi ilkin mülahizələr isə, təəssüf ki, özünü doğrultmadı. Əksinə, COVID-19 qarşısıalınmaz bir aqressiya ilə yoluxma və ölüm sayını artırmaqda davam edir. Karantin rejimləri sayəsində əldə olunan müsbət nəticələri koronavirus ikinci və daha təhlükəli dalğası ilə bir həmlədəcə məhv edir. İndi ölkələr yenidən bu gözəgörünməz bəla ilə ölüm-dirim savaşına atılıb.

Ölkəmizdə də pandemiya ilə əlaqədar məsələləri ciddi nəzarətdə saxlamaq, virusun geniş yayılmasının qarşısını almaq və insanların həyatını maksimum şəkildə qorumaq üçün zəruri və effektiv tədbirlər davam etdirilir. Buna görədir ki, virusun yayıldığı ilk mərhələdə yoluxma sayı minimuma endirildi, ölüm halları çox aşağı səviyyəyə düşdü, xüsusi rejimli xəstəxanalarda müalicə olunaraq sağalanların sayı yeni yoluxanların sayını xeyli üstələdi.

*Ardı 10-cu səh.*

# Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Mingəçevir şəhərinə səfər edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Ümummilli Lider Heydər Əliyevin Mingəçevir şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Qeyd edək ki, Azərbaycanın ən böyük sənaye mərkəzlərindən olan Mingəçevirdə 2003-cü illə müqayisədə 2019-cu ildə məhsul buraxılışı 1,1 dəfə, kənd təsərrüfatı 1,1 dəfə, əsas kapitala yönəldilmiş vəsait 52,7 dəfə artıb. 2003-cü ildən 2020-ci ilin birinci rübünə qədər şəhərdə 19 min 755 yeni iş yeri yaradılıb və bu il ödənişli əsaslarla 905, pandemiya ilə əlaqədar isə 762 müvəqqəti iş yeri açılıb.



# Prezidentin göstərişi ilə Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası bütün parametrlər üzrə yenidən qurulub

"Azərbaycan" İstilik Elektrik Stansiyasının 330 və 500 kilovoltluq açıq paylayıcı qurğuları, 8 enerji bloku, İdarəetmə Dispetçer Mərkəzi, stansiyanın əsas və köməkçi sahələri, bina və qurğuları əsaslı yenidənqurmadan sonra iyunun 25-də istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Qeyd edək ki, tikintisinə 1974-cü ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanan "Azərbaycan" İstilik Elektrik Stansiyasının birinci enerji bloku 1981-ci il oktyabrın 20-də, sonuncu - 8-ci blok isə 1990-cı ildə istismara verilib. Öz dövrü üçün nəhəng infrastruktur layihəsi olan və respublikanın energetika sistemində xüsusi əhəmiyyəti ilə seçilən "Azərbaycan" İES elə o vaxtdan ölkənin elektrik enerjisinə tələbatının qarşılanmasında hər zaman birinciliyini qoruyub saxlayıb. Lakin 2018-ci il iyulun 3-də stansiyada baş vermiş qəza nəticəsində ölkənin yarıdan çoxu qaranlıqda qaldı. 330 kilovoltluq yarımstansiyasındakı cərəyan transformatorunda baş verən qəza nəticəsində təxminən min kiloqrama qədər yağ ətrafa axmışdı, yaxınlıqdakı elektrotexniki avadanlıqların, eləcə də kabellərin, əsasən də informasiya və avtomatika kabellərinin üzərinə dağılaraq güclü yanğına səbəb olmuşdu. Nəticədə bir-birinin ardınca baş verən qəzalar ölkənin enerji sisteminə ciddi ziyan vurmuşdu.

Araşdırmalar nəticəsində məlum olmuşdu ki, stansiyadakı generatorlarda təsirlənmə sistemləri, soyuducuları köhnəlmiş və istismara tamamilə yararsızdır. Qazanlarda küləkdən mühafizə lövhələri dağılıb, qazan avadanlıqları aşınıb və sıradan çıxıb. Regenerativ hava qızdırıcıları, qaz yolları, kompensatorlar və digər qurğular uzun müddət istismar olunduğundan yararsız vəziyyətə düşüb. Stansiyanın tüstü boruları və konstruksiyaları da aşınmaya məruz qalmışdı, Fasiləsiz Qida Mənbələri demək olar ki, işləmirdi. Maşın zalının konstruksiyası, dam örtüyü və döşəməsi dağılmışdı. Kimyəvi sutəmizləmə qurğusu olduqca köhnəlmişdi, azot və oksigen qurğuları, reagent və yağ təsərrüfatları istismar müddətini iki dəfədən çox başa vurmuşdu. Hidrogen qurğusu uzunmüddətli istismar edildiyindən təhlükə yaradırdı. Hətta Yuxarı Qarabağ kanalının stansiya













ərazisindən keçən çıxış su kanalı hissəsinin yamacları dağılmışdı. 330 və 500 kilovoltluq yarımstansiyaların avadanlığı və mühafizə sistemləri öz ömrünü başa vurmuşdu. Bu isə sistem qəzasının olması ehtimalını ən yüksək səviyyəyə çatdırmışdı.

Prezident İlham Əliyev elektromobillə stansiyanın ərazisini gəzdi.

Stansiyada yaradılan şərait barədə dövlət başçısına məlumat verən "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev bildirdi ki, enerji bloklarının texniki su təchizatı Yuxarı Qarabağ kanalı vasitəsilə təmin edilir. Kanalın yamacları və dib hissəsi beton örtüklərlə bərpa olunub, dövran su xətlərinin altındakı dayaqlar əsaslı təmir edilib. Ərazidə yeni mazut çənləri, dövran və mazut nasosları quraşdırılıb. Stansiyanın qaz qəbulu məntəqələri də əsaslı təmir olunub.

İki il ərzində həyata keçirilən proqram çərçivəsində Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyasında bütün parametrlər üzrə tikinti və bərpa işləri sürətlə aparılıb. Əsas diqqət həm də "Azərbaycan" İstilik Elektrik Stansiyasının hər biri ayrıca elektrik stansiyası statusuna malik 8 blokunun yenidən qurulmasına yönəlib. Blokların təbii təsirlərdən qorunması və ən əsası da itkilərin azaldılması üçün izolyasiya işləri görülüb. Yenidəqurma proqramı çərçivəsində yararsız metal konstruksiyalar yenilənib, yük məhdudiyyətinə təsir edən regenerativ hava qızdırıcılarının daxili elementləri dəyişdirilib, turbin qurğularında zədələnmiş işçi kürəklər, hidrogen və yağ istilik mübadilə aparatları da təzələnib. Kimya sexi müasir tipli əks-osmos sutəmizləyici texnologiyaya əsasən yenidən qurulub, reagent təsərrüfatı yenilənib, əlavə ehtiyat su çənləri yaradılıb.

Diqqətə çatdırıldı ki, enerji bloklarında sıradan çıxmış elektrik mühərriki və nasos avadanlıqları, istismar və təmir üçün tələb olunan liftlər, ağırtonnajlı yükqaldırıcı kran və mexanizmlərin elementləri, yüksək gərginlikli cərəyan şinləri, güc və nəzarət kabelləri tam yenisi ilə əvəz olunub. Blok və xüsusi sərfiyyat transformatorları da təmir edilib.

Qeyd olundu ki, 2018-ci ildə sistem qəzasının mənbəyi olan 330 və 500 kilovoltluq yarımstansiyalar yenidən qurulub. İstismar müddəti bitmiş və partlayış təhlükəsi olan bütün hava açarları eleqaz tipli açarlarla, cərəyan və gərginlik transformatorları müasir tipli avadanlıqla əvəzlənib.

*Ardı 3-cü səh.*

# Prezidentin göstərişi ilə Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası bütün parametrlər üzrə yenidən qurulub

*Əvvəli 2-ci səh.*













Yarımstansiyaların hər biri üçün yeni idarəetmə binaları tikilib.

İndi "Azərbaycan" İES-in fəaliyyəti yeni tikilən inzibati binadan həyata keçirilir. Burada müxtəlif tədbirlərin keçirilməsi üçün geniş akt zalı yaradılıb. Bütün proseslər yeni quraşdırılan nəhəng monitordan idarə olunur.

Burada stansiyanın idarə olunması ilə bağlı videoçarx nümayiş etdirildi.

Sonra dövlət başçısı "Azərbaycan" İstilik Elektrik Stansiyasını işə saldı.

Prezident İlham Əliyevə yeni tikiləcək "Qobu" Elektrik Stansiyasının layihəsi barədə məlumat verildi.

Dövlət başçısı Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət etdi.

Burada çıxış edən **Prezident İlham ƏLİYEV** dedi:

- Mingəçevirdə İstilik Elektrik Stansiyası Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə tikilmişdir. Heydər Əliyev Azərbaycana birinci dəfə rəhbərlik etməyə başlayanda vəziyyəti təhlil edərkən gördü ki, Azərbaycanın energetika sisteminə çox böyük investisiyalar qoyulmalıdır. Bütün məsələlər təhlil olunandan sonra sovet rəhbərliyi qarşısında məsələ qaldırıldı. Onun davamlı və çox məqsədyönlü fəaliyyəti nəticəsində Sovet İttifaqının rəhbərliyi Azərbaycana böyük sərmayənin qoyuluşuna icazə verdi.

Əlbəttə, bu, tarixi hadisədir. Çünki o vaxt mərkəzləşdirilmiş fondlardan respublikaya vəsait cəlb etmək çox böyük çətinliklərlə başa gəlirdi. Nəzərə alsaq ki, Heydər Əliyev yeni rəhbər idi və onun dərhal belə bir təşəbbüslə çıxış etməsi sovet rəhbərliyində bir çoxlarını təəccübləndirmişdi. Ancaq bütün bunlara baxmayaraq, onun fəaliyyəti və yorulmaz səyləri nəticəsində 1971-ci ildə bu stansiyanın tikintisi haqqında qərar qəbul edildi, Azərbaycana mərkəzləşdirilmiş fondlardan böyük vəsait qoyulmağa və stansiyanın tikilməsinə başlandı. Ulu Öndər hələ Azərbaycanda rəhbər olan zaman stansiyanın birinci bloku istismara verildi - 1981-ci ildə. Sonra Heydər Əliyev Moskvada Siyasi Büroda fəaliyyətə başlayanda və Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışanda daim gözü Azərbaycanın üstündə idi. Heydər Əliyev bu stansiyanın tikintisinə xüsusi əhəmiyyət verirdi və onun fəaliyyəti nəticəsində qalan 7 blok da inşa edilmişdi. İndi təsəvvür etmək mümkün deyil ki, əgər bu stansiya o vaxt tikilməsəydi, biz müstəqillik dövründə hansı problemlərlə üzləşə bilərdik. Çünki yenidən qurulandan sonra bu stansiyanın generasiya gücü 2400 meqavatdır.

Təbii ki, ondan sonra, xüsusilə son 16 il ərzində ölkəmizdə 30 elektrik stansiyası tikilmişdir və onların arasında böyük stansiyaları xüsusilə qeyd etmək istərdim - "Cənub" təxminən 800 meqavat, "Səngəçal" 300 meqavatdan çox, "Sumqayıt" 525 meqavat, "Şimal-2" 400 meqavat, ondan əvvəl "Şimal-1" 400 meqavat. Bütün bunlar son illərdə tikilmiş stansiyalardır. Ancaq müstəqilliyimizin ilk illərində Azərbaycan yalnız bu stansiya hesabına yaşayırdı. Yalnız Heydər Əliyevin uzaqgörənliyi və vaxtında atılmış addımların səmərəliliyi nəticəsində Azərbaycan ayaqda dura bilmişdir. Ona görə bu gün Ulu Öndərin abidəsi önündə onun bu xidmətlərini biz xüsusilə qeyd etməliyik.

Hər bir ölkənin energetika sistemi onun döyünən ürəyidir, əsas motorudur. Bu olmasa, heç nə olan deyil. Bu olmasa, heç bir inkişafdan, heç bir investisiya qoyuluşundan söhbət gedə bilməz. Ona görə enerji olmayan yerdə inkişaf yoxdur. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan ağır illərdə, müstəqilliyin ilk illərində ayaqda dayana bildi. Düzdür, energetika sistemimiz köhnəlmişdi, amma yenə də öz istismar müddətini uzada-uzada generasiya davam edirdi. O illərdə biz böyük böhranla üzüzə idik, bir çox hallarda elektrik enerjisi kəsilirdi, rayonlarda, ümumiyyətlə, elektrik enerjisi fasilələrlə verilirdi, gündə iki saat, Bakı şəhərində də həmçinin. Ona görə bu stansiyanın xüsusi əhəmiyyəti var. İki il bundan əvvəl burada qəza baş verəndə, əlbəttə, bunun ölkəmizə nə qədər böyük zərbə vurduğunu hər kəs gördü, ölkəmiz zülmətə büründü, qaranlığa qərq oldu, metro dayandı, bütün hərəkət dayandı. Bu qəza yalnız məsuliyyətsizlik, səhlənkarlıq, vicdansızlıq nəticəsində baş vermişdi. O qəzadan sonra mənə verilən məlumatdan və bu stansiyadan çəkilmiş şəkillərdən dəhşətə gəldim, bu qədər vicdansızlıq olarmı?! Ona görə dərhal göstəriş verdim, kadr dəyişikliyi edildi, "Azərenerji"nin rəhbərliyi möhkəmləndirildi, təlimatlar verildi. Göstəriş vermişdim ki, bu İstilik Elektrik Stansiyasının generasiya gücləri qısa müddət ərzində yenidən yaradılmalıdır. O vaxt 800 meqavat generasiya gücü itirilmişdi, - bu stansiya cəmi 1600 meqavatla işləyirdi. Generasiya gücü yavaş-yavaş itirilirdi və belə bir fikir var idi ki, bunu bağlamaq, yaxud da söküb yenidən tikmək lazımdır, təmir etmək mümkün deyil. Bu 2400 meqavat gücü yenidən bərpa etmək neçəyə başa gələr, bunu hamı yaxşı bilir - milyardlarla dollara, milyardlarla. Ona görə mən "Azərenerji"nin bu sahədə fəaliyyətini xüsusi qiymətləndirirəm ki, stansiya cəmi 2 ildən az bir müddətdə yenidən quruldu, səkkiz blokun səkkizi də işlək vəziyyətdədir. 2400 meqavat generasiya gücü bərpa edildi, kanal tikildi, qəza baş verən yarımstansiyalar yenidən quruldu, müasir idarəetmə mərkəzi yaradıldı. Beləliklə, bu stansiyanın ömrü ən azı 20-30 il, bəlkə də 50 il uzadıldı. Bu, bizə nə verəcək? Bizə onu verəcək ki, bundan sonra da enerji təminatı sahəsində heç kimdən asılı olmayacağıq.

Biz 1990-cı illərdə bəzi hallarda xaricdən elektrik enerjisi alırdıq, çatmırdı. İndi isə biz ixrac edirik. Özü də bir ölkəyə yox, 3 ölkəyə elektrik enerjisini ixrac edirik. Bu gün mənə təqdim edilən "Qobu" Elektrik Stansiyasının tikintisi nəticəsində 300 meqavat əlavə güc əldə edəcəyik, ixracı daha da artıracağıq və ölkəmizin artan sənaye potensialını enerji ilə təmin edəcəyik. Əhali artır, sənaye artır, biznes fəaliyyəti artır - bütün bunlar enerji tələb edir. Bizim təbii resurslarımız var - qaz, neft. Stansiya həm qazla, həm mazutla işləyir. Elektrik xətlərimiz yenilənir, generasiya gücləri yaradılır, şəbəkə qurulub, yarımstansiyalar tikilir, bütün qonşu ölkələrlə yüksəkgərginlikli xətlər var. Ona görə bu gün Azərbaycan neft, qaz, yanacaq, elektrik enerjisini hasil edir, istehsal edir və ixrac edir. Yəni dünyada o qədər də çox ölkə bu dərəcədə çoxşaxəli fəaliyyətə sahib deyil. Bəzi ölkələrdə yanacaq-enerji balansının bir hissəsi mövcuddur, digər hissəsini isə idxal edir, asılıdır. Biz tamamilə müstəqilik və iqtisadi-enerji müstəqilliyi budur. Biz bunu əldə etmişik, Ulu Öndərin ruhu qarşısında vicdanımız təmizdir, onun yolunu davam etdiririk, onun əsərini bərpa etmişik. Burada və bütün başqa sahələrdə onun yolu ilə irəliyə, inkişafa, tərəqqiyə doğru gedirik.

Xahiş edirəm, bütün energetiklərə mənim salamlarımı çatdırın, Mingəçevir sakinlərinə də həmçinin. Mən bu stansiyanın yenidən qurulmasında əməyi keçən hər bir insana təşəkkür edirəm və sizə yeni uğurlar arzulayıram. Sağ olun.

❖ ❖ ❖

Qeyd edək ki, stansiyada yenidənqurma işləri aparılarkən ölkəyə elektrik verilişi bir dəqiqə də olsun dayanmayıb. Bütün işlər paralel olaraq yerinə yetirilib. Yanğın təhlükəsizliyinin təmin olunmasına xüsusi diqqət göstərilib.

"Azərbaycan" İES ölkənin elektrik enerjisinə olan tələbatının 40 faizini ödəyir. Stansiyada istehsal edilən elektrik enerjisi respublikanın enerji sisteminə 330 və 500 kilovoltluq elektrik verilişi xətləri ilə ötürülür.

Yenidənqurma işlərindən sonra stansiyanın qoyuluş gücü 2400 MVt-a çatdırılıb və 600 MVt itirilmiş güc bərpa olunub. Bununla da "Azərbaycan" İES-in etibarlılığı artıb, dayanıqlılığı, təhlükəsizliyi və səmərəliliyi təmin olunub.

# Azərbaycan Ordusu dünyanın

## ALİ BAŞ KOMANDAN İLHAM ƏLİYEV: “Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və ediləcək, heç kimdə bu haqda şübhə olmasın!”

## Prezident İlham Əliyevin nitqi

- Mən sizi və ordumuzun bütün şəxsi heyətini qarşıdan gələn Silahlı Qüvvələr Günü münasibətilə təbrik etmək istəyirəm. Azərbaycan Silahlı Qüvvələrinə yeni uğurlar, yeni qələbələr arzulayıram. Bayram günü ərəfəsində yeni hərbi hissənin açılışını qeyd edirik. Mən vəziyyətlə tanış oldum, əvvəlki vəziyyət haqqında da mənə məruzə edildi. Əlbəttə ki, yeni tikilmiş hərbi hissə bütün yüksək standartlara cavab verir.

Son illər ölkəmizdə ordu quruculuğunda, xüsusilə hərbi hissələrin tikintisində Azərbaycan standartları tətbiq edilir və bu standartlar ən yüksək qiymətə layiqdir. Yeniliklər də kifayət qədər çoxdur, xidməti yüksək səviyyədə aparmaq üçün bütün imkanlar yaradılıb. Hətta kazarmalarda kondisionerlər də quraşdırılıb və bu, onu göstərir ki, bu sahədə çox böyük irəliləyiş var. Mənim göstərişimlə bütün hərbi hissələrimiz, şəhərciklərimiz, hərbi bazalarımız faktiki olaraq yenidən qurulur. Son məlumata görə, hərbi hissələrimizin 90 faizində tikinti-bərpa, yenidənqurma işləri, demək olar ki, tamamlanmışdır. Hesab edirəm ki, maksimum il yarım-iki il ərzində qalan hərbi hissələr də bu vəziyyətə gətiriləcəkdir. Çünki əsgər və zabitlərin xidmət şəraiti onların döyüş qabiliyyətini artırır və eyni zamanda imkan verir ki, istənilən vəzifə icra edilsin. Bir də ki bu, bir daha Azərbaycan dövlətinin öz ordusuna göstərdiyi qayğının təzahürüdür. Ordu quruculuğu bizim üçün prioritet məsələdir. Bu, təbiidir, çünki biz müharibə şəraitində yaşayırıq və belə olan halda ordu ilə bağlı bütün məsələlər ən başlıca vəzifədir.

Onu da bildirməliyəm ki, şəxsi heyətin xidmət şəraitinin yaxşılaşdırılması ilə bərabər, zabitlərin məişət problemləri də həll olunur. Orduda 20 il qüsursuz xidmət edən zabitlərə mənim göstərişimlə dövlət tərəfindən mənzillər verilir və bu proqram icra edilir. Bu, əlbəttə ki, böyük vəsait tələb edir və biz bu vəsaiti ayırırıq. Bu günə qədər 1700 zabit bu proqramla əhatə olunub və onlara yaxşı mənzillər verilibdir. Mən bu yaxınlarda göstəriş verdim ki, bu ilin sonuna qədər əlavə 419 zabitə dövlət tərəfindən mənzillər verilsin. Beləliklə, bu günə qədər olan vəziyyətə görə, bu proqramla əhatə olunan zabitlərin maksimum sayı təmin edilib. Mənə verilən son məlumata görə, təqribən 200-dən bir qədər çox zabit hələ növbədədir. Onların da mənzil problemləri həllini tapacaq. Hesab edirəm ki, bu da dünya praktikasında çox nadir hallarda müşahidə olunan mənzərədir. Burada da Azərbaycan ön sıralardadır, yeniliklər göstərir. Çünki Vətənə sədaqətlə və qüsursuz xidmət edən hərbçilər dövlət tərəfindən gərək yüksək təminatla əhatə olunsunlar. Hər bir insanın həyatında mənzil problemi çox önəmli məsələdir, biz onu da həll edirik. Ordumuza göstərilən qayğı bu məsələlərlə bitmir. Hərbçilərin əməkhaqları müntəzəm olaraq qaldırılır. Xüsusilə deyə bilərəm ki, fərqlənmiş hərbçilər mükafatlandırılır. Bu da təbiidir.

Bizim ordumuzun son illər ərzində uğurlu inkişafı göz qabağındadır. Bunu Azərbaycan xalqı bilir, görür. Dünyada orduların reytinqlərini tərtib edən sanballı qurumlar da bunu qeyd edir. Bu gün Azərbaycan Ordusu dünyada 50 ən güclü ordu sırasındadır. Biz bunu yorulmaz fəaliyyət nəticəsində əldə etmişik. Çünki mənim Prezident kimi fəaliyyətimdə ordu quruculuğu birinci yerdədir.

Əlbəttə ki, bütün digər məsələlər də öz həllini tapmalıdır və tapır. Bu gün Azərbaycan dünya miqyasında öz gücünə arxalanan və heç kimdən asılı olmayan ölkədir. Ancaq biz müharibə şəraitində yaşayırıq və eyni zamanda görürük ki, bu gün dünyada, beynəlxalq müstəvidə güc amili ön plana çıxır. Beynəlxalq hüquq normaları kobudcasına pozulur, onlara əməl edilmir. Əfsuslar olsun ki, bu gün beynəlxalq münasibətlərdə “kim güclüdür, o da haqlıdır” prinsipi üstünlük təşkil edir. Biz bunu görürük, müşahidə edirik və buna uyğun öz addımlarımızı atmalıyıq. Çünki biz real vəziyyətlə hesablaşmalıyıq. Beynəlxalq hüququn normalarının pozulması hər bir ölkəni öz hərbi potensialının gücləndirilməsinə vadar etməlidir və biz buna artıq çoxdan başlamışıq. Məhz bunun nəticəsində bu gün Azərbaycan Ordusu çox yüksək peşəkarlığa malikdir. Eyni zamanda mənim göstərişimlə son illərdə ordumuzun silah-sursat, texnika ilə təchizatı da təşkil edilir. Bu məqsədlər üçün milyardlarla dollar vəsait xərclənib. Bu gün texniki təchizat baxımından Azərbaycan Ordusu güclü ordular sırasındadır. Bizim zirehli texnikamız ən yüksək standartlara cavab verir. Bizim hava hücumuna qarşı müdafiə sistemimiz müasirləşib və bu hərbi hissənin vəzifəsi məhz bundan ibarətdir. Biz bir neçə ölkədən hava hücumuna qarşı ən müasir qurğular əldə etmişik. Onların Azərbaycanda - bizim coğrafiyada bir-birinə inteqrasiya edilməsi də asan məsələ deyil. Çünki bizim hava hücumuna qarşı müdafiə sistemlərimiz, - bu, sirr deyil, bu məlumat artıq açıqlanıb, - həm Rusiya istehsalıdır, Belarus istehsalıdır, İsrail istehsalıdır, eyni zamanda sovet vaxtından qalan qurğulardır və onlar da modernləşdirilib. Onları bir-birinə elə inteqrasiya etmək, elə yerləşdirmək lazımdır ki, bizim bütün strateji obyektlərimiz havadan qorunsun. Əlbəttə ki, böyük peşəkarlıq və vəsait tələb edir. Bizim vəsaitimiz olmasaydı, bunları haradan alacaqdıq. Bir ölkə varmı ki, bizə pulsuz, müftə nəsə verib. Belə bir ölkə yoxdur, heç vaxt da olmayıb, o cümlədən hərbi sahədə. Nəyi əldə etmişiksə, öz hesabımıza əldə etmişik. Əgər biz güclü iqtisadiyyat qurmasaydıq, əgər biz nəhəng neft-qaz layihələri icra etməsəydik, bu vəsaiti haradan alacaqdıq. Bütün bunlar bir-biri ilə bağlı olan məsələlərdir.





Hava hücumuna qarşı müasir qurğularımız imkan verir ki, bizim ölkəmiz, o cümlədən strateji obyektlər qorunsun. Bu gün keçirdiyim müşavirədə mənə məruzə edilən məsələlər, o cümlədən cəbhə bölgəsində yaranmış vəziyyət bir daha onu göstərir ki, Azərbaycan strateji üstünlüyə malikdir. Ona görə ordumuzun müasir silah-sursat, texnika ilə təchizatı bundan sonra da davam etdiriləcək. Eyni zamanda bizim döyüş təyyarələrimiz modernləşdirilib, yüzdən çox hərbi və hərbi-nəqliyyat vertolyotumuz var. Bu da bizim böyük potensialımızdır. Pilotsuz uçuş aparatları ən yüksək səviyyəli istehsalçıların istehsalıdır. Eyni zamanda Azərbaycanda da bu istehsal təmin edilib.

Yerli istehsala gəldikdə, deyə bilərəm ki, mənim sərəncamımla 15 il bundan əvvəl yaradılmış Müdafiə Sənayesi Nazirliyinin xətti ilə 1300-dən çox adda hərbi təyinatlı məhsul istehsal olunur. Bizdə heç vaxt hərbi sənaye yox idi. Əgər biz bunu yaratmasaydıq, bu gün böyük problemlərlə üzləşə bilərdik. Amma indi nəinki özümüzü bir çox hərbi təyinatlı məhsullarla təmin edirik, ixrac da edirik və ixrac coğrafiyamız artıb. Biz onlarca ölkəyə hərbi məhsul ixrac edirik. Heç 15 il bundan əvvəl bu haqda fikirləşmək də əbəs idi. Onu kimsə desəydi, bəlkə də inanmazdılar. Amma bu, reallıqdır. Reallığı biz yaradırıq, öz əllərimizlə, öz gücümüzlə, öz iradəmizlə.

Ona görə bütün bu amillər - orduya, zabitə, əsgərə qayğı, məişət, xidmət şəraitinin yaxşılaşdırılması və ordumuzun silah-sursat, texnika ilə təchizatı, bir də, əlbəttə ki, döyüş qabiliyyətinin artırılması, bax, bunlar bu əsas amillərdir. Əlbəttə ki, vətənpərvərlik. Ona görə hər bir hərbi hissədə ideoloji tərbiyə yüksək səviyyədə təşkil edilməlidir. Buna bütün rəhbər heyət cavabdehlik daşıyır ki, bizim gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda böyüsünlər, müstəqilliyin qədrini bilsinlər. Bilsinlər ki, müstəqillik bizə asan başa gəlməyib. Bilsinlər ki, bu gün müstəqilliyi qorumaq, onu möhkəmləndirmək bir çox ölkələr üçün böyük məharət tələb edir. İndi dünya xəritəsinə baxmaq kifayətdir ki, görək, adı var, amma faktiki olaraq müstəqil ölkə deyil. Nə üçün? Çünki müstəqil siyasət apara bilmir, başqasının təsiri altındadır. Biz son vaxtlar nə qədər belə ölkə görmüşük ki, özünü qoruya bilmir, faktiki olaraq parçalanır, məhv edilir, insanlar həlak olur, bütün infrastrukturu dağıdılır. Nəyə görə? Çünki özlərini qoruya bilmədilər. Qorumaq üçün gərək həm güc, həm də güclü iradə, inam olsun.

Ona görə mən sizə tapşırıram, bütün hərbi hissələrdə ideoloji vəziyyətə xüsusi əhəmiyyət verilməlidir. Ölkəmizin tarixi - həm qədim tarixi, həm də müasir tarixi ilə əlaqədar hər bir əsgərdə, zabitdə dolğun təəssürat olmalıdır. Çünki mən bunu dəfələrlə demişəm, əfsuslar olsun ki, biz real tariximizi bilməmişik. Günah da bizdə deyil, çünki belə oxumuşuq, bizə belə dərs veriblər. Sovet vaxtında tarix dərslərinin çoxu saxta idi. Azərbaycan xalqının düşmənləri qəhrəman kimi qələmə verilirdi. Quldur 26 Bakı komissarları dəstəsi qəhrəman kimi təqdim edilirdi. O dəstənin başında dayanan cinayətkar erməni millətçiləri qəhrəman kimi təqdim olunurdu. Onların adına rayonlar verilirdi, onlara abidələr qoyulurdu. Azərbaycan xalqının cəlladı Şaumyana abidə qoyulmuşdu, onun adı əbədiləşdirilmişdi. Biz bu tarixi görmüşük. Yenə də günah bizdə deyil. Sovet hakimiyyətinin tarixi bu idi. Müstəqilliyi quranlar düşmən kimi qələmə verilirdi. Azərbaycan Xalq Cümhuriyyəti antimilli qurum kimi qələmə verilirdi. Ancaq bizim müstəqilliyimizi əlimizdən alanlar, yerli satqınlar qəhrəman kimi qələmə verilirdi. Küçələrə onların adları verilir, onlara abidələr, monumentlər qoyulurdu. Bəlkə də yaddan çıxıb, Sahil bağında 26 Bakı komissarlarına abidə qoyulmuşdu. Mən fikirləşdim ki, bu nə məsələdir. Bunlar Azərbaycan xalqının qanını axıdıblar, bizi məhv ediblər. Heç şəhərin mərkəzində belə abidəmi olar? O abidə də və o quldur dəstəsinin üzvlərinin abidələri də söküldü və düz də etmişəm. Bütün dini ayinləri gözləmək şərti ilə onların qəbirləri oradan köçürüldü. Ancaq bu, dözülməz idi ki, şəhərimizin mərkəzində Azərbaycan xalqının düşmənlərinə abidə ucaldılıb.

Ona görə mən deyirəm, bizim gənclər bu tarixi bilməlidirlər, qədim tariximizi bilməlidirlər. Bilməlidirlər ki, bugünkü Ermənistan Azərbaycan torpaqlarında formalaşıb, bugünkü Ermənistan xəritəsində coğrafi toponimlərin əsl adlarını bilməlidirlər. Mən gedirəm, haradasa xəritədə sonra dəyişdirilmiş erməni adlarını görürəm. Bütün yerli icra orqanlarına irad tuturam ki, bilmirsiniz, gedin soruşun. Fikirləşin nə yazırsınız, axı, bunun qədim Azərbaycan adı var. Bu, bizim torpağımızdır. Ona görə bu sahəyə xüsusi diqqət göstərməliyik. Orduda xidmət edən hər bir gənc tərxis olunandan, mülki həyata qayıdandan sonra öz tarixini olduğu kimi bilməlidir.

Əlbəttə ki, əsas döyüş qabiliyyətimizdir. Bütün digər amillər ki, mən qeyd etdim, bunun məqsədi var, o da döyüş qabiliyyətini artırmaqdır. Bu istiqamətdə də lazımi addımlar atılır. Həm 2016-cı ilin, həm 2018-ci illərin hərbi əməliyyatları bunu göstərdi. Biz böyük ərazini işğalçılardan azad edə bilmişik. Füzuli, Cəbrayıl, Ağdərə rayonlarının bir hissəsini 2016-cı ildə düşməndən azad etmişik və o torpaqlarda Azərbaycan bayrağını ucaltmışıq. Ermənilərin işğal edilmiş torpaqlarda qazdıqları səngərlərə girmişik. Biz indi orada otururuq və orada möhkəmlənmişik. Uğurlu Naxçıvan əməliyyatı nəticəsində 10 min hektardan çox ərazini işğalçılardan azad etmişik və strateji yüksəkliklərə çıxmışıq. Ermənistandan Dağlıq Qarabağa gedən yol bizim gözümüzün qabağından keçir. Ona görə döyüş qabiliyyətinin artırılması istiqamətində əlavə addımlar atılmalıdır ki, biz hər an ərazi bütövlüyümüzü bərpa etmək üçün hazır olaq. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və ediləcək, heç kimdə bu haqda şübhə olmasın. Sadəcə daha güclü olmalıyıq. Geosiyasi vəziyyətə daim nəzarət etməliyik. Beynəlxalq müstəvidə dəyişən vəziyyəti düzgün təhlil etməliyik və beynəlxalq aləmdə daha çox dost toplamalıyıq. Biz bunu da edirik. Bu gün beynəlxalq aləmdə Azərbaycanla dostluq edən ölkələrin sayı gündən-günə artır.

İşğal edilmiş torpaqlarda bu gün ermənilər qanunsuz məskunlaşma siyasəti aparırlar. Bu məsələ ilə əlaqədar mən artıq bir neçə dəfə öz fikirlərimi bildirmişəm, o cümlədən xüsusilə beynəlxalq tədbirlər çərçivəsində. Avropa İttifaqının sonuncu Şərq Tərəfdaşlığı Zirvə görüşü çərçivəsində də bu məsələyə diqqət yetirdim. Biz bütün beynəlxalq təşkilatlarda bu məsələni qaldırırıq və qaldıracağıq. Qanunsuz məskunlaşmaya son qoyulmalıdır. Beynəlxalq ictimaiyyəti buna çağırırıq. Minsk qrupunun həmsədrlərinin bu məsələyə xüsusi diqqət yetirməyini istəyirik ki, bu qanunsuz məskunlaşma dayansın. Çünki Ermənistanın siyasəti bundan ibarətdir. Onlar bizim şəhərlərin adlarını dəyişdiriblər. Əvvəlcə indiki Ermənistan ərazisində, indi isə Dağlıq Qarabağda və ətraf bölgələrdə. Orada yeni dırnaqarası sərhədlər çəkiblər, bizim tarixi keçmişimizi, məscidlərimizi məhv ediblər, tarixi abidələrimizi, torpaqlarımızı erməniləşdirmək istəyirlər. İndi qanunsuz məskunlaşma aparmaq istəyirlər, ancaq onlarda insan resursu olmadığı üçün çətinlik çəkirlər. Amma yenə də diaspor fəaliyyəti nəticəsində buna çalışırlar. Biz buna imkan verməyəcəyik, bunu hər kəs bilsin. Biz münaqişə ilə bağlı mövqeyimizdə möhkəm dayanmışıq və bir addım geri atmayacağıq. Beynəlxalq təşkilatlar indi ərazi bütövlüyü prinsipini xüsusilə qeyd edirlər. Avropa İttifaqının sonuncu Şərq Tərəfdaşlığı Zirvə görüşündə çıxış edənlərin, dünya liderlərinin bir çoxu bu məsələyə aydınlıq gətiriblər. Ərazi bütövlüyü prinsipi insanların, xalqların öz müqəddəratını təyin etmək prinsipindən üstündür. Heç kimin bu haqda şübhəsi olmasın. Bütövlükdə, Ermənistana və Dağlıq Qarabağ məsələsinə gəldikdə, öz müqəddəratını müəyyənetmə prinsipi işləmir, çünki erməni xalqı öz müqəddəratını bir dəfə müəyyən edib, onların erməni dövləti var, baxmayaraq ki, Azərbaycan torpağında yaradılıb. Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına biz heç cür imkan verə bilmərik. Ancaq bir daha demək istəyirəm ki, ərazi bütövlüyü prinsipi bu gün üstünlük təşkil edir. Ona görə bizim mövqeyimiz beynəlxalq hüquq, tarixi ədalət baxımından mükəmməldir. Əlbəttə ki, münaqişə bu prinsiplər əsasında öz həllini tapmalıdır. Ancaq bayaq qeyd etdiyim kimi, dünyada güc amili ön plana çıxır və biz bu gücü toplamalıyıq, məsələni istənilən yolla həll etməliyik.

Əlbəttə, bu münaqişə Azərbaycan Xalq Cəbhəsi hakimiyyətinin acı mirasıdır. Çünki məhz onların xəyanətkar fəaliyyəti nəticəsində torpaqlarımız işğal altına düşüb. Bunu hər kəs bilməlidir. Şuşanın işğalı böyük faciə idi. O vaxt Azərbaycanda hakimiyyət uğrunda mübarizə gedirdi. Azərbaycan Xalq Cəbhəsi istənilən yollarla hakimiyyətə gəlmək istəyirdi. O, əvvəlki hakimiyyəti yıxmaq üçün ən çirkin, ən xəyanətkar əməllərə əl atdı, Şuşanı ermənilərə təhvil verdi. Hərbçilər yaxşı bilirlər, Şuşa alınmaz qaladır. Onu almaq mümkün deyil. Onu təhvil verdilər, satdılar ki, hakimiyyəti yıxsınlar, hakimiyyətə gəlsinlər. Əfsuslar olsun ki, belə də oldu. 1992-ci ilin mayında Şuşa və Laçın işğal edildi, Xalq Cəbhəsinin dəstələri qanunsuz yollarla hakimiyyətə gəldi. Ondan sonra nə etdilər? Ondan sonra ölkəmizi dağıtmağa başladılar. İşğal edilmiş torpaqlar qaldı bir yana, onlar isə talançılıqla, rüşvətxorluqla, oğurluqla məşğul idilər, kabelləri kəsib satırdılar. Kütləvi talançılıq baş alıb gedirdi. Nəticədə bir tərəfdən xalq buna dözmədi, digər tərəfdən, 1993-cü ilin aprelində Ermənistan Kəlbəcəri işğal etmişdi. Qanunsuz yollarla hakimiyyətə gəlmiş həmin xəyanətkar Azərbaycan Xalq Cəbhəsi hakimiyyəti Kəlbəcəri Ermənistana təhvil verdi və ondan sonra Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yarandı. Artıq gediş-gəliş və silah-sursat, texnika və təchizat başlamışdı. Ondan sonra nə etdilər? Torpaqları müdafiə etmək əvəzinə qardaş qanını axıtdılar, vətəndaş müharibəsini başladılar, Gəncəni bombaladılar.

# güclü orduları sırasındadır

Azərbaycan əsgərlərini əsir götürmüşdülər. Orada torpaqlar əldən gedir, burada bir-birini qırırlar ki, hakimiyyətə gəlsinlər. Məhz bunun nəticəsində torpaqlarımız işğal altına düşdü. Əgər Heydər Əliyev hakimiyyətə gəlməsəydi, bilmək olmur Ermənistan hələ haraya qədər gəlib çıxa bilərdi.

Ona görə bu tarixi hər kəs bilməlidir. Bu işğal Azərbaycan Xalq Cəbhəsinin xəyanətkar və satqın hərəkətlərinin nəticəsidir. Xalq onlara dözmədi, qaçıb getdilər. Buna nə ad vermək olar? Ancaq fərarilik. Prezident fərarilik edib qaçdı Kələkiyə. Yaxşı, sən Ali Baş Komandansan, ölkə müharibə şəraitindədir. Sən xalqı, dövləti, dövlətçiliyi qorumalısan. Gecə ilə gizlin təyyarəyə minib, uçub Naxçıvana, oradan gedib oturub Kələkidə. Buna nə ad vermək olar? İndi buna bəraət qazandırmaq istəyənlərə üz tutub deyirəm. Nə ad vermək olar buna? Qorxaqlıq, satqınlıq, fərarilik. Başqa ad yoxdur. Hamı da bunu bilməlidir. O birilər nə etdilər? O vaxtkı dövlət katibi indi özünü guya, müxalifət adlandırır. Amma o hansı müxalifətdir, Azərbaycan xalqı yaxşı bilir. Onların tərbiyəsi, mərifəti, addımları nədən ibarətdir, indi bütün vətəndaşlar internetdə görürlər.

Mən demişəm ki, Azərbaycanda nə qədər pis olsa, onlar üçün o qədər yaxşıdır. Görün, nəyə sevinirlər? Sevinirlər ki, neftin qiyməti 14 dollara düşüb. Buna kim sevinir? Bir Ermənistan, bir də özünü müxalifət adlandıran bu antimilli şura. Neftin qiyməti 14 dollara düşəndə axı, insanlar bundan əziyyət çəkəcək, problemlər yaranacaq, sosial sahədə problemlər yaşana bilər, iqtisadiyyatımız yavaşıyar. Amma bu, onların işinə yarayır, Azərbaycan üçün nə qədər pisdir, onlar üçün o qədər yaxşıdır. Bax, onlar o vaxt da bu prinsiplə yaşayırdılar. Ona görə torpaqlarımızı əldən verdilər. Dövlət katibi o vaxt prezidentlə bir yerdə fərarilik edib. O da getdi gizləndi Kələkidə. Parlamentin sədri fərarilik etdi. Onlar fəraridirlər, satqındırlar, xaindirlər. Hər kəs bunu bilməlidir, heç kim bunu unutmamalıdır.

İndiki şəraitdə biz gücümüzü daha da artırmalıyıq və artırırıq. Ermənistan artıq bir neçə ildir ki, dərin böhran içindədir. Deyə bilərəm ki, Ermənistanın müstəqillik tarixi, prinsipcə, rüsvayçılıq tarixidir. Çünki indiki iqtidar artıq dəfələrlə bəyan və sübut edib ki, 1998-ci ildən 2018-ci ilə qədər Ermənistana rəhbərlik etmiş şəxslər cinayətkardır, oğrudur, quldurdur. Onların bir çoxu həbs edilib. Məlum olub ki, onların generalları oğrudur, əsgər "tuşonka"sını oğurlayıb, sonra bazarlarda satdırırdılar. Onların qəhrəmanları cinayətkardır, onların prezidentləri rüşvətxordur. İndiki hakimiyyət bunları açdı-tökdü. Onsuz da biz bunu bilirdik, indi bütün dünya bunu bilir. Yəni belə çıxır ki, 20 il ərzində bu dırnaqarası müstəqil ölkəyə quldur, rüşvətxor və cinayətkarlar rəhbərlik ediblər. Bu ölkəyə nə ad vermək olar? Hələ 30 il yoxdur, guya, müstəqil ölkə kimi yaşayır, əgər 20 il quldurlar rəhbərlik edibsə, nə ad vermək olar - quldur ölkəsi, cinayətkar ölkəsi. Yaxşı, baxaq görək, 2018-ci ildən bu yana nə baş verib. Guya, orada demokratik inqilab olub. Hamısı yalandır. O pullar oraya haradan axıdılıb, biz bunu bilirik, yəqin ki, erməni xalqı da bilir. İndiki hakimiyyət hansı xarici dairələrdən idarə olunur, bunu hər kəs bilir. Sadəcə olaraq, indiki rəhbərlərin tərcümeyi-halına baxın, görün bunlar hansı fondlarda işləyiblər, kimdən pul alıblar. Postsovet məkanında həmin dırnaqarası inqilabları, əslində, qanlı çevrilişləri təşkil edənlər indiki Ermənistan rəhbərlərinin himayədarlarıdır. Onları idarə ediblər və əlbəttə ki, xalqda o çirkin kriminal, xunta rejiminə nifrət böyük idi. Ondan istifadə edib hakimiyyəti zəbt





















ediblər. Ondan sonra nə baş verir? Ondan sonra hazırda Ermənistanda artıq diktatura hökm sürür. Bu, qaçılmaz faktdır. Onlarda təqribən bir il bundan əvvəl həbsdə olan bir jurnalist axıra qədər aclıq elan edir və ölür. Heç bir beynəlxalq təşkilat, Avropa Şurası, ATƏT-in mətbuat üzrə xidməti bir səs belə çıxarmırlar. Nə üçün? Çünki bilirlər ki, indiki Ermənistanın rəhbərləri kimdir.

Son hadisələr nəyi göstərir? Siyasi opponentlər təqib edilir, həbs olunur, konstitusiyaya qanunsuz dəyişikliklər edilir. Halbuki bu dəyişikliklər ancaq referendumda edilə bilər. Gördülər ki, referendumda keçməyib, parlamentdə dəyişikliklər etdilər. Deməli, hakimiyyət bölgüsü tamamilə pozulub. Qanunvericilik hakimiyyəti, icra hakimiyyəti, məhkəmə-hüquq sahəsi artıq bir adamın əlindədir, bir alətdir və bu diktatura möhkəmlənir. Eyni zamanda Ermənistanda korrupsiya, talançılıq, rüşvətxorluq, qohumbazlıq kütləvi xarakter alıb. İndi bunu artıq üzə çıxardırlar. Sən demə, qaçaqmalçılıqla baş nazirin özü və onun ailəsi məşğuldur. Siqaret qaçaqmalçılığının başında baş nazir, onun ailəsi, yaxınları dayanır. Ondan sonra zəngin iş adamlarına qarşı cinayət işləri açılır, sonra da onlar məcbur edilir ki, - bir fond yaradıblar, - o pulları fonda köçürsünlər. O fonddan da bu pullar çəkilir, mənimsənilir. Yəni bu gün Ermənistanın baş naziri və onun yaxın qohumları, ətrafı rüşvətxorluq rəmzinə çevriliblər. Baxın, bunların maliyyə imkanları iki il bundan əvvəl nə idi, indi nədir. Ona görə Ermənistanda diktatura hökm sürür və bu, nə qədər belə çox davam edərsə, orada problemlər böhranlı həddə bir o qədər tez çatacaq. Prinsip etibarilə əgər belə obyektiv təhlil aparsan, görərsən ki, orada inkişaf perspektivləri yoxdur. Çünki ölkə özü-özünü saxlaya bilmir, öz sərhədlərini qoruya bilmir, xarici ölkələrin əsgər və zabitləri onların sərhədlərini qoruyur, öz hərbi gücünü təmin edə bilmir, xarici dövlət orada hərbi baza saxlayır, silahlar ala bilmir, xarici dövlət onlara pulsuz silah-sursat verir. İqtisadiyyatı düz qura bilmir, ancaq yalvara-yalvara, dilənə-dilənə kreditlər hesabına yaşayır. İndi Avropa İttifaqından 90 milyon dollar pul dilənir, ondan-bundan dilənir. Deməli, demoqrafik böhran yaşanır, insanlar bu ölkəni tərk edirlər və təbii azalma gedir. İndi Ermənistanın real əhalisi 2 milyon nəfərdən azdır. Bunu mən bilirəm və Ermənistan rəhbərliyi bilir. Bir də ki bu ölkə qonşulara - özü də kimə, Türkiyə kimi böyük bir ölkəyə ərazi iddiaları irəli sürür. Dırnaqarası soyqırımı ilə bağlı Türkiyəyə qarşı əsassız ittihamlar irəli sürülür. Heç bir soyqırımı olmamışdır. Ermənilər həm 1918-ci ildə, həm də Xocalıda bizə qarşı soyqırımı törətmişlər. Ona görə belə bir iddia ilə yaşayan ölkənin gələcəyi çox qaranlıqdır.

Biz isə hər sahədə, beynəlxalq müstəvidə güclənirik, güclənməliyik - ölkə daxilində sabitlik, iqtisadi sahədə islahatlar, sosial problemlərin həlli, regionların inkişafı və nəhayət, ordu quruculuğu. Ona görə bu yolla biz gedəcəyik, ordumuzu bundan sonra da gücləndirəcəyik, nə qədər lazımdırsa, orduya o qədər vəsait ayıracağıq. Heç nəyə baxmadan, - neftin qiyməti 14 dollara düşdü, Xalq Cəbhəsinin sevincinə səbəb olan o hadisəni xatırlatmaq istəyirəm, yaxud da ki, qalxdı, fərq etməz, - bizim iqtisadiyyatımız dayanıqlıdır və biz ordumuza nə lazımdırsa, bundan sonra da edəcəyik.

Mən bir daha Azərbaycan Silahlı Qüvvələrinin bütün şəxsi heyətini bu gözəl bayram münasibətilə təbrik etmək istəyirəm. Sizə yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun.

# Prezident Mingəçevirdə Dövlət Rəmzləri Muzeyinin açılışında iştirak edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Mingəçevirdə Dövlət Rəmzləri Muzeyinin açılışında iştirak edib.







AZƏRTAC xəbər verir ki, dövlət başçısına muzeydə nümayiş etdirilən eksponatlar barədə məlumat verilib.

Bildirilib ki, tikintisi bu ilin aprelində başa çatdırılan Dövlət Rəmzləri Muzeyinin sərgi zalında 9 bölmə yaradılıb. Burada Milli Elmlər Akademiyasının Tarix İnstitutu tərəfindən hazırlanmış ayrı-ayrı dövrlərə uyğun Azərbaycan xəritələri, Orta Əsrlərə aid döyüşçüləri əks etdirən manekenlər, Orta Əsr Azərbaycan dövlətlərinin və xanlıqlarının bayraqları, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar sərgilənir.

Muzeyin eksponatları arasında Azərbaycan Orta Əsr əsgərlərinin döyüş geyimləri, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, Azərbaycan SSR-in gerbləri və bayraqları, Silahlı Qüvvələrin mərasim geyim formaları və döyüş bayraqları, Ümummilli Lider Heydər Əliyevin və dövlət başçısı İlham Əliyevin andiçmə mərasiminə aid fotoşəkillər, dövlət rəmzləri haqqında kəlamlar, poçt markaları, orden, medal, fəxri ad və döş nişanları nümayiş olunur.

Dövlət Rəmzləri Muzeyinin yerləşdiyi ərazidə 200 yerlik yay səhnəsi də tikilib.

Prezident İlham Əliyevə şəhərdəki "Dostluq" və "Nəsimi" parklarında aparılan yenidənqurma işləri barədə də məlumat verildi.

Bildirildi ki, hər iki parkda istər şəhər sakinlərinin, istərsə də Mingəçevirin qonaqlarının istirahətlərinin maraqlı təşkili üçün hərtərəfli şərait yaradılıb.



## Cibuti Respublikasının Prezidenti zati-aliləri cənab İsmail Ömər Gellehə

Hörmətli cənab Prezident.

Dost Cibuti Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Xoş ənənəyə və qarşılıqlı hörmətə əsaslanan Azərbaycan-Cibuti münasibətlərinin bugünkü səviyyəsi məmnunluq doğurur. Əminəm ki, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı kimi beynəlxalq platformalarda mövcud olan faydalı əməkdaşlığımız bundan sonra da uğurla davam edəcəkdir.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost Cibuti xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2020-ci il*

## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçularına ali hərbi rütbələr verilsin:

**"general-polkovnik" hərbi rütbəsi**
general-leytenant Kərəm Nəriman oğlu Mustafayevə

**"general-mayor" hərbi rütbəsi**
polkovnik Nizami Ağoğlan oğlu Məmmədova
polkovnik Ramil Əlimran oğlu Əsgərova

**"kontr-admiral" hərbi rütbəsi**
1-ci dərəcəli kapitan Sübhan Kamal oğlu Bəkirova.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2020-ci il*

## E.M.Səmədova general-mayor ali hərbi rütbəsinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Katibinin Xidmətinin Hərbi təhlükəsizlik məsələləri şöbəsinin müdiri Elman Mühyəddin oğlu Səmədova general-mayor ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2020-ci il*

## Mingəçevir şəhərində 12 nömrəli tam orta məktəb binasının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Mingəçevir şəhərində 450 şagird yerlik 12 nömrəli tam orta məktəb binasının əsaslı təmiri işlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məktəb binasının əsaslı təmiri işlərinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2020-ci il*

## Samux Rayon Mərkəzi Xəstəxanasının layihələndirilməsi və tikintisi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Samux Rayon Mərkəzi Xəstəxanasının layihələndirilməsi və tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.19.7-ci yarımbəndində göstərilmiş 2,0 (iki) milyon manat Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2020-ci il*

## Samux rayonunun Çobanabdallı kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Samux rayonunun Çobanabdallı kəndində 624 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 2,0 (iki) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2020-ci il*

## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunmasında xüsusi xidmətləri olmuş digər şəxslərin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçuları və Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunmasında xüsusi xidmətləri olmuş aşağıdakı şəxslər təltif edilsinlər:

**"Azərbaycan Bayrağı" ordeni ilə**

Hüseynov Rövşən Səməd oğlu - istefada olan polkovnik-leytenant
Çaybasarlı Elçin Rəhman oğlu - istefada olan mayor
Həsənov Zahir Şamxal oğlu - istefada olan leytenant

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Babayev Elşad Çingiz oğlu - general-leytenant
Ağalarov Fazil Köçəri oğlu - general-mayor
Eminov Məmməd Şəmil oğlu - general-mayor
Xəlilov Elçin Xəzənağa oğlu - general-mayor
Nəsibov Qədir Əşrəf oğlu - general-mayor

**"Vətən uğrunda" medalı ilə**

Əlibəyov Elxan Əlibəy oğlu - general-mayor
Əliverdiyev Vüqar Əfqan oğlu - general-mayor
Rzayev Mübariz Balağa oğlu - general-mayor
Əsgərov Vüqar Feyruz oğlu - polkovnik
Əzimzadə Emin Rauf oğlu - ədliyyə polkovniki
Hüseynov Anar Tofiq oğlu - polkovnik
İslamzadə Namiq Sərəfruz oğlu - polkovnik
Mirzəyev Fikrət Ərəstun oğlu - polkovnik
Ramazanov Nəsif Məmmədəli oğlu - polkovnik
Seyidov İlham İsrayıl oğlu - polkovnik
Şirvanov Mahir Məhərrəm oğlu - polkovnik
Əliyev Ramiq Sirac oğlu - polkovnik-leytenant
Həziyev İbrahim Əsəd oğlu - polkovnik-leytenant
Mirzəyev Anar Mehman oğlu - polkovnik-leytenant
Şıxalıyev Nəsimi Yarməmməd oğlu - polkovnik-leytenant
Zeynalov Zahir Səlamət oğlu - mayor
İsmayılov Ceyhun İsaxan oğlu - kapitan

**"İgidliyə görə" medalı ilə**

Həsənov Ayaz Binyat oğlu - general-leytenant
Cəfərov Zaur Hüseyn oğlu - polkovnik-leytenant
Əliyev Əli Mikayıl oğlu - polkovnik-leytenant
Əmirov Teymur Abbas oğlu - polkovnik-leytenant
Əfkərov Ramin Əhməd oğlu - mayor
Hümbətov Ramal Səlim oğlu - mayor
Mehdiyev Elmar Adil oğlu - mayor
Təhməzov Ceyhun Mirzəbaba oğlu - kapitan
Əliyev İlkin Məhəmməd oğlu - baş gizir

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Əliyev İkram Zülfü oğlu - general-mayor
İsmayılov Rauf Arif oğlu - general-mayor
Mahmudov Hüseyn Pənah oğlu - general-mayor
Babayev Aqşin Azad oğlu - polkovnik
Cəfərov Ceyhun Sədulla oğlu - polkovnik
Cəfərov Rövşən Məmmədcəfər oğlu - tibb xidməti polkovniki
Ərəblinski Şərif Ramazan oğlu - polkovnik
İsayev Vüqar İsa oğlu - ədliyyə polkovniki
Məmmədov İlqar Kazım oğlu - polkovnik
Şirinov Habil Sabir oğlu - istefada olan tibb xidməti polkovnik-leytenantı
Baxşəliyev Mehman Asdan oğlu - istefada olan mayor
İsayev Hənifə Hüseyn oğlu - istefada olan mayor
Sedov Sergey Yakovleviç - istefada olan mayor
Aslanov Ərşad Xasay oğlu - istefada olan baş leytenant
Bayramov Siyavuş Rəhim oğlu - ehtiyatda olan baş gizir
Rəhimova Gülnaz Xasay qızı - baş gizir
Mehdiyev İlqar Mirzə oğlu - istefada olan gizir
Müzəffərov Eynulla Feyzulla oğlu - ehtiyatda olan baş çavuş
Abbasov Basir Ağaəli oğlu - çavuş (ölümündən sonra)
Həsənov Aftandil Məmməd oğlu - ehtiyatda olan kiçik çavuş
Salmanov Məhərrəm Hüseyn oğlu - ehtiyatda olan kiçik çavuş
Həsənov Amil Vəli oğlu - ehtiyatda olan əsgər
Hüseynov Bilal Ətraf oğlu - ehtiyatda olan əsgər
Novruzov Eyvaz Əli oğlu - ehtiyatda olan əsgər
Rəhimov Xudaverən Yaqub oğlu - istefada olan əsgər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2020-ci il*

## Samux rayonunun Yenikənd-Poylu-Salahlı-Qarabağlı-Kəsəmən avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Beş min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirən Yenikənd-Poylu-Salahlı-Qarabağlı-Kəsəmən avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün göstərilmiş vəsaitin 19,1 milyon (on doqquz milyon bir yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2020-ci il*

Milli Məclisin iclasında

# Azərbaycan Ordusu qarşısında duran istənilən vəzifəni icra etməyə qadirdir

İyunun 25-də Milli Məclisin növbədənkənar sessiyasının iclası keçirildi. Spiker Sahibə Qafarova əvvəlcə deputat Ziyad Səmədzadəni 80 yaşının tamam olması münasibətilə təbrik etdi.





"Bu gün çox dəyərli həmkarımız, Azərbaycanda iqtisad elminin inkişafında böyük xidmətləri olan akademik Ziyad Səmədzadənin 80 yaşı tamam olur. Möhtərəm Prezident İlham Əliyev akademik Ziyad Səmədzadəni 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif etmişdir" deyən Sahibə Qafarovanın sözlərinə görə, bu, təkcə Ziyad müəllim üçün deyil, həm də bütövlükdə, Milli Məclis üçün sevindirici hadisədir. Milli Məclisin Sədri Ziyad Səmədzadəyə fəaliyyətində yeni-yeni uğurlar arzu etdi.

Deputat Ziyad Səmədzadə ona göstərilən diqqətə görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürünü bildirdi, bundan sonra da Azərbaycanda iqtisad elminin daha da inkişafı üçün əlindən gələni əsirgəməyəcəyini dedi.

Sonra gündəlikdəki məsələlərin müzakirəsi başladı. İlk olaraq Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi üçüncü oxunuşda təqdim olundu. Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə bildirdi ki, bu dəyişikliklər ölkə Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli fərmanı ilə əlaqədardır. Belə ki, ədalət mühakiməsinin əlçatanlığını və şəffaflığını daha da artırmaq məqsədilə məcəlləyə bir sıra dəyişikliklər təklif olunur. Bu dəyişikliklər "Elektron məhkəmə" informasiya sisteminin tətbiqini, müasir informasiya-kommunikasiya texnologiyalarının üstünlüklərindən istifadə edilməklə, xüsusi hallarda cinayət prosesinin videokonfrans vasitəsilə davam etdirilməsini təmin edən yeni maddələrin məcəlləyə əlavə edilməsini, həmçinin bu sahədə müasir informasiya vasitələrinin tətbiqini nəzərdə tutur. Layihə üçüncü oxunuşda qəbul olundu.

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə əlaqədar bildirildi ki, sənəd "Əhalinin sağlamlığının qorunması haqqında" qanunda dəyişiklik edilməsi barədə" 27 iyun 2019-cu il tarixli qanuna uyğunlaşdırma məqsədi daşıyır. Layihədə tibb müəssisələrinin akkreditasiyası ilə bağlı dövlət rüsumlarının məbləği müəyyən edilib. Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Parlamentin Regional məsələlər komitəsinin üzvü Kamran Bayramov "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini müzakirəyə (ikinci oxunuş) təqdim etdi. Deputat bildirdi ki, təklif olunan dəyişikliklər bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqan tərəfindən bələdiyyələrin yol verdiyi pozuntularla yanaşı, onları yaradan səbəb və şəraitin aradan qaldırılmasını, bələdiyyə aktlarına 15 iş günü müddətində baxılmasını, inzibati nəzarət icraatı zamanı dövlət orqanları və qurumlarına sorğuların göndərilməsini və məlumatların alınmasını, habelə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın apardığı araşdırma zamanı bələdiyyələrin vəzifəli şəxslərindən, bələdiyyə qulluqçularından yazılı məlumatlar və arayışlar almaq hüququnun verilməsini nəzərdə tutur. Bu dəyişikliklər orqanın fəaliyyətinin təkmilləşdirilməsi, inzibati nəzarət icraatının daha səmərəli, dolğun və hərtərəfli şəkildə həyata keçirilməsi üçün şərait yaradacaqdır. Layihə ikinci oxunuşda təsdiq edildi.

Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı (ikinci oxunuş) məlumat verdi. Bildirildi ki, 2017-ci il 10 fevral tarixində Ədliyyə Nazirliyinin tərkibində Probasiya Xidməti yaradılmışdır və bu xidmətin vəzifəsi cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına nəzarəti təşkil etməkdən ibarətdir. Bu məqsədlə cərimə və islah işləri növlərində cəzaların, habelə hüquqi şəxslərə tətbiq edilən cərimə növündə cinayət-hüquqi tədbirlərin icrası ilə əlaqədar daxil olan vəsaitin müəyyən faizinin Ədliyyə Nazirliyinin hesabına köçürülməsi təklif olunur. Qeyd edildi ki, müvafiq dəyişiklik xidmət əməkdaşlarının maddi və sosial müdafiəsinin gücləndirilməsi, habelə xidmətin maddi-texniki təminatının yaxşılaşdırılması üçün nəzərdə tutulub. Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edildi.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov İnzibati Xətalar Məcəlləsinə təklif olunan dəyişikliklər haqqında (ikinci oxunuş) məlumat verdi. Qeyd etdi ki, təklif olunan dəyişikliklər "Telekommunikasiya haqqında" qanuna əsasən telekommunikasiya operatorları və provayderlər tərəfindən hüquq mühafizə orqanlarının sorğularına cavabların gecikdirilməsinə və tələb olunan məlumatların təqdim edilməməsinə görə tətbiq ediləcək cərimələr məbləğini və inzibati məsuliyyət növlərini özündə ehtiva edir. Layihə ikinci oxunuşda təsdiqləndi.

Kamal Cəfərov Cəzaların İcrası, Cinayət və İnzibati Xətalar məcəllələrinə təklif edilən dəyişikliklərlə bağlı qanun layihələrini də (ikinci oxunuş) təqdim etdi. Bildirdi ki, dəyişikliklər Ədliyyə Nazirliyinin Probasiya xidmətinin daha geniş tətbiqi məqsədilə aparılıb. Belə ki, barəsində ictimai cəza və inzibati tənbeh qərarı çıxarılmış şəxslər də elektron nəzarət vasitəsi gəzdirəcəklər. Məhkəmə tərəfindən ictimai işlərə məhkum edilmiş şəxslərin üzərinə ictimai işlərin yerinə yetirildiyi yerlərdə elektron nəzarət vasitəsini gəzdirmək və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmək vəzifəsi qoyulur. Sənədlər ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda təsdiq olundu.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Telekommunikasiya haqqında" qanunda dəyişiklik edilməsi barədə layihəni (ikinci oxunuş) təqdim etdi. Bildirildi ki, qanunda "az" ölkə kodlu, yüksək səviyyəli domen adlarının tənzimlənməsinə dair müddəalar nəzərdə tutulmuşdur. Birinci oxunuşdan sonra layihəyə təkliflər daxil olmamışdır. Qanun layihəsi ikinci oxunuşda təsdiq edildi.

Gündəliyin növbəti dörd məsələsi bir zərfdə daxil olduğuna görə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Vergi Məcəlləsinə, "Notariat haqqında", "Sosial sığorta haqqında" və "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" qanunlara təklif olunan dəyişikliklər barədə (birinci oxunuş) məlumat verdi. Bildirdi ki, bu dəyişikliklər elektron icra, elektron notariat və elektron məhkəmə informasiya sistemlərinin genişləndirilməsi və bu sistemlər arasında məlumat mübadiləsinin labüdlüyü ilə bağlıdır. Layihələr ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edildi.

Milli Məclis Sədrinin müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli parlamentə bir zərfdə təqdim olunmuş "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" və "Qrant haqqında" qanunlara dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələri ilə bağlı məlumat verdi. Bildirdi ki, təklif edilən dəyişikliklər həm uyğunlaşdırma, həm də rəqəmsal texnologiyanın inkişafı nəticəsində elektron xidmətlərdən istifadənin daha da genişləndirilməsi, həmçinin "Elektron imza və elektron sənəd haqqında" qanuna uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının elektron sistemindən istifadə zamanı sənədlərin əldə edilməsinin asanlaşdırılması məqsədini daşıyır. Hər üç qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edildi.

İclasın sonunda Milli Məclisin Sədri Sahibə Qafarova 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə təbriklərini çatdırdı. Bildirdi ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri son illərdə çox böyük inkişaf yolu keçib: "Həyata keçirilən geniş miqyaslı islahatlar nəticəsində ordumuzun maddi-texniki təchizatı gücləndirilib, döyüş qabiliyyəti və peşəkarlığı yüksəlib. Bu gün Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır və qarşısında duran istənilən vəzifəni icra etməyə qadirdir. Biz 2016-cı ilin şanlı Aprel zəfərində bir daha bunun şahidi olduq. Azərbaycan xalqı ordumuza böyük inam və rəğbət bəsləyir, haqlı olaraq qürur duyur".

Milli Məclisin Sədri bir daha Silahlı Qüvvələr Günü münasibətilə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin bütün şəxsi heyətinə, xalqımıza və deputatlara təbriklərini çatdırdı.

Bununla da Milli Məclisin iclası başa çatdı.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Gənclər arasında narkomanlığa qarşı mübarizə gücləndirilir

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə 26 iyun - Narkotik vasitələrin sui-istifadəsi və qanunsuz dövriyyəsi ilə Beynəlxalq Mübarizə Günü ilə əlaqədar "Gənclər arasında narkomanlığa qarşı mübarizənin gücləndirilməsi" mövzusunda onlayn konfrans keçirilib.

Gənclər və İdman Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə Baş nazirin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Əhmədov, Gənclər və İdman naziri Azad Rəhimov, Milli Məclis Sədrinin müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev, Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi, polis polkovniki İslam Hümbətov, "Narkotiklərə Qarşı Təbliğat" İctimai Birliyinin sədri, Milli Məclisin deputatı Məzahir Əfəndiyev, Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov, Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti, Dövlət Komissiyasının üzvü Rauf Zeyni, İctimai Səhiyyə və İslahatlar Mərkəzinin Layihələrin əlaqələndirilməsi şöbəsinin müdiri Səbinə Babazadə, Gənclər Təşkilatları Milli Şurasının sədri Məryəm Məcidova və digər şəxslər iştirak ediblər.

Konfransda bildirilib ki, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin hesablamalarına əsasən, dünyada narkotik alveri ən çox gəlir gətirən üçüncü sahə hesab olunur. Dünyada milyonlarla, ölkəmizdə minlərlə insan bu bəladan əziyyət çəkir. Beynəlxalq statistikaya əsasən, gənclər və yeniyetmələr arasında narkotiklərə aludəçilik hallarının yüksələn xətlə artması xüsusi narahatlıq yaradır. Azərbaycanda narkomanlıq ilə mübarizə Ümummilli Lider Heydər Əliyevin daim diqqət mərkəzində olub. 1996-cı ildə müvafiq Dövlət Komissiyası yaradılıb və daha sonra "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" qanun qəbul edilib. Narkomaniyaya və narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə Azərbaycan dövlətinin prioritet vəzifələrindən hesab olunur. Bu günədək həmin sosial bəlanın aradan qaldırılması məqsədilə üç Dövlət proqramı icra olunub, 2019-cu ildən etibarən isə dördüncü Dövlət Proqramı həyata keçirilməkdədir.

Nazir Azad Rəhimov qeyd edib ki, gənclərin layiqli vətəndaş kimi tərbiyə olunması, onlar arasında sağlam həyat tərzinin təbliği Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətinin əsas hədəflərindən biridir. Vurğulanıb ki, Prezident İlham Əliyev tərəfindən imzalanan "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı"nda gənclərin sağlamlığının qorunması və həssas qruplardan olan gənclərə dövlət dəstəyi sahəsində tədbirlərin reallaşdırılması nəzərdə tutulub. "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı"nda bu istiqamətdə fəaliyyətin daha da genişləndirilməsi vəzifə kimi aidiyyəti orqanlara tapşırılıb. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" bu istiqamətdə həyata keçirilməli olan kompleks tədbirləri müəyyənləşdirib.

Azad Rəhimov nazirliyin narkomaniya ilə mübarizə çərçivəsində həyata keçirdiyi layihələr haqqında məlumat verərək bildirib ki, narkomaniyaya qarşı mübarizə məqsədilə təşviqat aksiyaları, mədəni-kütləvi tədbirlər, müsabiqələr, festivallar təşkil olunur. Gənclərin maarifləndirmə və məlumatlandırma fəaliyyətində Dayanıqlı İnkişaf Məqsədləri üzrə gənc səfirlər yaxından iştirak edir, gənclərlə bilik və təcrübələrini bölüşürlər.

A.Rəhimov deyib: "Nazirlik ilk dəfə "Həyatla oyun" adlı tamaşanı 2012-ci ildə səhnələşdirib. Tamaşa ictimaiyyət tərəfindən hədsiz maraqla qarşılanıb. 2012-2019-cu illərdə Bakıda və respublikanın digər rayon və şəhərlərində 19-dan çox gənclərin fiziki aktivlik və sağlamlıq festivalları keçirilib. Festivallar çərçivəsində məktəblilər arasında yarışlar olub, bir sıra idman növləri üzrə fəaliyyətlər nümayiş etdirilib. 2017-2019-cu illərdə respublikanın 16 rayonunda "Sağlam gələcək üçün zərərli vərdişlərə qarşı birləşək!" devizi ilə maarifləndirici tədbirlər keçirilib. Bu tədbirlərdə üç minə yaxın yeniyetmə və gənc iştirak edib. Bununla yanaşı, nazirliyin Bakıda, ölkəmizin digər şəhər və rayonlarındakı yerli idarələrində, eyni zamanda qeyri-hökumət təşkilatları tərəfindən də gənclər arasında sağlam həyat tərzinin təbliği ilə bağlı tədbirlər mütəmadi olaraq həyata keçirilir. 2016-cı ildə "Narkomaniya ilə mübarizədə gənclər təşkilatlarının rolu" mövzusunda konfrans və sərgi, 2018-ci ildə isə "Narkomanlığa qarşı mübarizə" mövzusunda gənc jurnalistlər arasında ən yaxşı müəllif yazıları müsabiqəsi Dövlət Komissiyası ilə birgə təşkil olunub".

Vurğulanıb ki, nazirlik Dövlət Komissiyasının İşçi qrupu ilə daim əməkdaşlıq edir, bu sahədə birgə layihələr həyata keçirir. Bu da tədbirlərin səmərəliliyinə müsbət təsirini göstərir. Hazırda respublikamızda fəaliyyət göstərən "Gənclər evi" Sosial Xidmət müəssisələrində gənclərin qeyri-formal təhsili, sağlam həyat tərzi, gənclərin iştirakı, inkişafı, psixososial dəstək, peşə seçimi, informasiya-məsləhət xidmətinin göstərilməsi, karyera planlaşdırılması kimi xidmətlərə cəlb edilməsi onların asudə vaxtlarının səmərəli təşkilində, zərərli vərdişlərdən uzaqlaşdırılmasında və layiqli vətəndaş kimi formalaşmasında müstəsna əhəmiyyət kəsb edir.

Videokonfransda diqqətə çatdırılıb ki, narkomaniyaya qarşı mübarizədə atılan addımlar müsbət nəticə verməkdədir. Lakin bu sahədə fəaliyyətin daha da genişləndirilməsinə, yeni və kreativ aksiyaların həyata keçirilməsinə ehtiyac var. Pandemiya və post-pandemiya dövründə bu sahədə həyata keçirilməli olan tədbirlərin formaları üzərində yenidən müzakirələr aparılmalı, müasir, təsiredici layihələrin keçirilməsi gündəmə gəlməlidir.

Qeyd olunub ki, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası, Gənclər və İdman Nazirliyi və digər dövlət qurumları narkomaniyaya qarşı mübarizəyə töhfələrini vermək üçün bütün imkanlarını bundan sonra da səfərbər edəcək, bu istiqamətdə fəaliyyəti məqsədyönlü şəkildə davam etdirəcəklər.

# Xalqımız işğal olunmuş torpaqlarımızın Ali Baş Komandanın müdrikliyi sayəsində geri qaytarılacağına qəti əmindir

Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov 26 İyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü münasibətilə özünün rəsmi "Facebook" səhifəsində paylaşım edib.

AZƏRTAC xəbər verir ki, Əli Əhmədov bildirib: "26 İyun - Silahlı Qüvvələr Günüdür. Quruculuq prosesi Ümummilli Lider Heydər Əliyevin müstəqil dövlətçilik strategiyasının reallaşması dövründən başlayan möhtəşəm Azərbaycan Ordusu Prezident İlham Əliyevin rəhbərliyi altında, sözün həqiqi mənasında, dünyanın qüdrətli silahlı qüvvələri sırasında özünə layiqli yer tutub.

Bu gün Azərbaycan xalqı işğal olunmuş torpaqlarımızın Ali Baş Komandanın müdrikliyi və ordumuzun gücü sayəsində geri qaytarılacağına qəti əmindir.

Silahlı Qüvvələr Günümüz mübarək!"

# Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yanında Təhlükəsizlik Şurasının iclası keçirilib

İyunun 25-də Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yanında Təhlükəsizlik Şurasının iclası keçirilib.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək deyib: "Müstəqillik dövründə ölkəmizdə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycan dünya birliyində öz layiqli yerini tutmuşdur. Görülən işlər sırasında ordu quruculuğu mühüm əhəmiyyət daşıyır. Ümummilli Liderimiz Heydər Əliyevin 1991-ci il sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi qəbul etdiyi ilk qərar Naxçıvanda Dövlət Milli Müdafiə Komitəsinin yaradılması oldu. Həmin dövrdə qəbul olunan bu qərar Naxçıvanın müdafiəsi ilə yanaşı, həm də ölkəmizin ordu quruculuğu tarixində mühüm mərhələdir. 1992-ci il sentyabrın 15-də Dövlət Milli Müdafiə Komitəsinin bazasında 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada, 1995-ci il mayın 21-də isə motoatıcı briqadanın nəzdində motoatıcı diviziya yaradıldı. O dövrdə Ulu Öndərin həyata keçirdiyi ordu quruculuğu tədbirlərinin tərkib hissəsi kimi Naxçıvanda diviziyanın yaradılması böyük qətiyyət tələb edirdi".

Ali Məclisin Sədri deyib: "1998-ci ilin dekabrın 8-də isə Naxçıvan ordu korpusu yaradıldı. Ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında dövrün tələbinə uyğun olaraq ordu quruculuğu sahəsində görülən işlər bütün sahələrdə inkişafı təmin etmişdi. Ümummilli Liderimiz Heydər Əliyev deyirdi ki, "Güclü, qüdrətli ordu Azərbaycanın dövlət müstəqilliyini əbədi etmək, ölkəmizin ərazi bütövlüyünü təmin etmək üçün əsas amildir, respublikamızın sülh və əmin-amanlıq şəraitində yaşamasının təminatıdır". Bu gün Ulu Öndərimizin ordu quruculuğu siyasəti ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Ordusu dünyanın güclü orduları sırasında öz yerini tutub. Görülən işlərin nəticəsi olaraq Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 18 dekabr tarixli Fərmanı ilə 5 saylı ordu korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordu yaradılıb".

Ali Məclisin Sədri deyib ki, son illər muxtar respublikada ordu quruculuğu sahəsində görülən tədbirlər, Günnüt əməliyyatı, Sədərək rayonunda torpaqların işğaldan azad olunması, sərhədlərin möhkəmləndirilməsi və digər tədbirlər bir daha təsdiq etdi ki, Əlahiddə Ümumqoşun Ordunun yaradılması və fəaliyyəti mühüm əhəmiyyətə malikdir. Bütün bunlar ölkə Prezidentinin muxtar respublikanın müdafiə təhlükəsizliyinin təmin olunmasına göstərdiyi diqqətin nəticəsidir. Əlahiddə Ümumqoşun Ordunun yaradılması ilə muxtar respublikada mərkəzi qərargah və təlim-tədris mərkəzi təşkil edilmiş, Silahlı Qüvvələrimizin Naxçıvandakı bütün ordu, birləşmə və hissələrinin daxil olduğu Naxçıvan Hərbi Qarnizonu formalaşmış, vahid fəaliyyət proqramı müəyyənləşdirilmişdir.

26 İyun Azərbaycanda Silahlı Qüvvələr Günüdür. Bu gün hər kəs ordumuzla qürur duyur, Silahlı Qüvvələr Günü bayram kimi qeyd olunur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il 25 iyun tarixli Sərəncamına əsasən, Naxçıvan Hərbi Qarnizonunun rəisi Kərəm Nəriman oğlu Mustafayevə general-polkovnik ali hərbi rütbəsi verilmiş, digər sərəncamla isə 5 zabit orden və medallarla təltif olunmuşdur.

Ali Məclisin Sədri 26 İyun - Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü münasibətilə Silahlı Qüvvələrimizin Naxçıvandakı ordu, birləşmə və hissələrinin şəxsi heyətini, onların ailə üzvlərini, şəhid ailələrini, müharibə veteranlarını, muxtar respublika əhalisini təbrik edib, general-polkovnik ali hərbi rütbəsini Kərəm Mustafayevə təqdim edib.

Əlahiddə Ümumqoşun Ordu Komandanı, general-polkovnik Kərəm Mustafayev çıxış edərək deyib: "Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin apardığı hərtərəfli, məqsədyönlü siyasət nəticəsində ordumuz nəinki Cənubi Qafqazda, hətta Müstəqil Dövlətlər Birliyi məkanında öz gücü ilə seçilən ordudur. Ulu Öndərin böyük ruhu qarşısında baş əyir, cənab Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanına və Ali Məclisin Sədrinə minnətdarlığımı bildirirəm".

# ABŞ Dövlət Departamentinin terrorizmə qarşı mübarizəyə dair illik hesabatında Azərbaycanın bu sahədəki fəaliyyəti yüksək qiymətləndirilib

ABŞ Dövlət Departamentinin 2019-cu ildə dünyada terrorizmə qarşı mübarizə ilə bağlı hesabatında Azərbaycanın bu sahədəki uğurlu fəaliyyəti yüksək qiymətləndirilib.

AZƏRTAC xəbər verir ki, hesabatda 2019-cu ildə Azərbaycan hökumətinin ölkənin quru və dəniz sərhədlərində və Cənubi Qafqaz daxilində insanların pulların və materialların hərəkəti üzrə terror cəhdlərinin qarşısını almaq, aşkarlamaq və məğlub etmək üçün fəal iş apardığı xüsusi vurğulanıb. Qeyd olunub ki, Azərbaycanın hüquq mühafizə və xüsusi xidmət orqanları terror aktlarının qarşısını almaq üçün əməliyyatlar keçirib, terrorda şübhəli bilinən şəxsləri həbs edib və cinayət məsuliyyətinə cəlb edib. 2019-cu ildə Azərbaycanda heç bir terror aktı qeydə alınmayıb.

Dövlət Departamentinin hesabatında Azərbaycanın hüquq mühafizə orqanlarının və təhlükəsizlik xidmətlərinin ölkədə terror aktlarını aşkar etmək, saxlamaq və qarşısını almaq üçün adekvat bacarıq nümayiş etdirdikləri ifadə olunub: "Azərbaycanın hüquq mühafizə orqanları və təhlükəsizlik xidmətləri bir-biri ilə və regional və beynəlxalq tərəfdaşlarla terrorizmlə bağlı məsələlər üzrə məlumat mübadiləsi aparırlar. 2019-cu ildə Azərbaycan "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017-2019-cu illər üçün Milli Fəaliyyət Planı"nın icrasını davam etdirib".

Bundan başqa, hesabatda ölkəmizin Avropa Şurasında, ATƏT-də, İslam Əməkdaşlıq Təşkilatında və digər beynəlxalq təşkilatlarda üzvlüyünü davam etdirdiyi də qeyd olunub.

"Azərbaycan NATO-nun antiterror təşəbbüslərini alyansın "Sülh naminə tərəfdaşlıq" ölkələrindən biri kimi dəstəkləyir. Azərbaycan 120 sülhməramlı hərbçisi ilə NATO-nun Əfqanıstanda keçirdiyi "Qətiyyətli Dəstək" missiyasında iştirak edib və Əfqanıstan milli ordusunun Məqsədli Fonduna töhfə verib", - deyə ABŞ Dövlət Departamentinin hesabatında bildirilib.

# 26 İyun Silahlı Qüvvələr Günüdür!

# Güclü Azərbaycan Ordusu İlham Əliyevin yaratdığı inkişaf nümunələrindən biridir



















*Əvvəli 1-ci səh.*

Heydər Əliyevin AXC-Müsavat dövründə yaradılmış və daha çox ayrı-ayrı şəxslərin, bəzi siyasi partiyaların konyunktur maraqlarına, dövlət çevrilişi məqsədlərinə xidmət edən silahlı dəstələri buraxmaqla, onların fəaliyyətini qanundan kənar elan etməklə başladığı ordu quruculuğunun effektiv nəticələri artıq 1993-cü ilin sonu, 1994-cü ilin əvvəllərində özünü göstərməyə başlamışdı. Başlanğıcını 1993-cü il noyabrın 2-dən - Ulu Öndərin xalqa müraciətindən götürən və tarixə Heydər Əliyevin ordu quruculuğu kimi düşən bu dönəmin ilkin çağlarında yeni yaradılan və mərkəzi komandanlığa tabe olan hərbi birləşmələr Ermənistanın güclənən hücumlarının qarşısını böyük mətinliklə aldılar, 1993-cü ilin sonu, 1994-cü ilin əvvəllərində Füzuli istiqamətində, Murovda yüksək peşəkarlıqla uğurlu hərbi əməliyyatlar keçirərək çoxsaylı yaşayış məntəqələrini, strateji əhəmiyyət kəsb edən yüksəklikləri düşməndən azad etdilər.

Heydər Əliyevin 1994-cü il yanvarın 24-də cəbhəyə yola düşən yeni hərbi hissənin şəxsi heyətinə xitabən dediyi *"Bilin ki, sizin hər birinizin arxasında böyük Azərbaycan ölkəsi durmuşdur. Bilin ki, hər biriniz öz doğma Vətəninizi, öz ananızı, atanızı, bacınızı, qardaşınızı müdafiə etmək üçün ordu sıralarına gəlmisiniz. Bilin ki, sizin hər bir uğurlu addımınız Azərbaycan Respublikasının müstəqilliyinə və ərazi bütövlüyünə kömək edəcəkdir. Bilin ki, ümumi qələbəmiz sizin hər birinizin fəaliyyətindən, qəhrəmanlığından asılıdır"* sözlərini unutmayan, Ulu Öndərin bu xeyir-duasından ruhlanan zabitlərimiz, əsgərlərimiz, gizirlərimiz və çavuşlarımız o dövrdə sinələrini düşmən pulemyotunun qarşısına verməklə, əldə qumbara düşmən tankının altına atılmaqla əsl qəhrəmanlıq dastanları yaratdılar.

1994-cü il mayın 12-də atəşkəsin elan edilməsindən sonra ordu quruculuğu ilə bağlı genişmiqyaslı islahatlara start verildi. Tezliklə hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin formalaşdırılması tam başa çatdırıldı. Ordunun maddi-texniki təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı. Ordu quruculuğunun ən müxtəlif sahələri ilə bağlı zəruri olan qanunlar qəbul edildi, silahlı qüvvələrin mükəmməl qanunvericilik bazası yaradıldı.

## Yüksək döyüş hazırlığı, modern silahlanma

Heydər Əliyevin təhlükəsizlik siyasəti və strategiyası, ordu quruculuğu ilə bağlı başladığı işlər Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hələ 2003-cü ildə andiçmə mərasimindəki nitqi zamanı Prezident İlham Əliyev bununla bağlı deyib: *"Azərbaycanda ordu quruculuğu sahəsində də böyük işlər görülmüşdür. Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir".*

Ötən 17 ildə ölkəmizin müdafiə sisteminin möhkəmləndirilməsi, Silahlı Qüvvələrdə aparılan modernləşmə islahatları və bunun nəticəsi olaraq baş verən keyfiyyət dəyişiklikləri dövlət başçısı, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin öz vədinə sadiqliyini təsdiq edir. Dövlət başçısı təhlükəsizlik siyasətini həyata keçirən və bu istiqamətdə praktik fəaliyyət göstərən orqan və qurumlar içərisində, ilk növbədə, ölkəmizin hərbi təhlükəsizliyinin qarantı olan ordu quruculuğu və Silahlı Qüvvələrin yüksək döyüş hazırlığı səviyyəsinə gətirilməsi istiqamətində çox gərgin, səmərəli və məqsədyönlü iş aparmaqdadır. Çünki Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığı bir vaxtda qarşıda dayanan əsas vəzifələrdən biri ordunun gücləndirilməsi, döyüş qabiliyyətinin daim artırılması, modernləşməsi, ən son hərbi texnologiyalara yiyələnməsidir. Bundan irəli gələrək Azərbaycanın maliyyə imkanlarının artması nəticəsində ötən illərdə ordumuzun döyüş qabiliyyətinin yüksəldilməsi üçün bu sahədə qabaqcıl dövlətlərlə uğurlu əməkdaşlıq həyata keçirilib. İstər quru qoşunlarının, istər hərbi hava qüvvələrinin, istərsə də hava hücumundan müdafiə sistemlərinin döyüş imkanları ən müasir tələblər səviyyəsinə çatdırılıb. Bu mənada inkişafın Azərbaycan nümunəsinin əsas göstəricilərindən biri də ordumuzun qüdrətlənməsi, döyüş qabiliyyətini artırmasıdır.

Hazırda Cənubi Qafqazın ən qüdrətli ordusuna malik Azərbaycanın Silahlı Qüvvələri döyüş hazırlığına görə MDB məkanında ön sıralarda gedir. Azərbaycan vətəndaşları Silahlı Qüvvələrimizdə baş verən keyfiyyət və kəmiyyət dəyişikliklərini ordumuzun keçirdiyi təntənəli hərbi paradlarda görüblər. Ölkəmizin hərbi qüdrətinin nümayişi olan belə paradlarda xalqımız və beynəlxalq ictimaiyyət Azərbaycanın mükəmməl hərbi gücə malik olduğuna şahidlik edib. Təsdiq olunub ki, Azərbaycan Ordusu arsenalını ən modern silah və digər hərbi texnika ilə zənginləşdirir. Fərəhlisi odur ki, bu gün dünyanın hərbi baxımdan inkişaf etmiş dövlətlərinin malik olduqları strateji silahlar Azərbaycanda var.

## Düşmən üzərində əzici üstünlüyün təsdiqi

4 il əvvəl - 2016-cı ilin aprel ayının ilk günlərində Tərtər və Füzuli istiqamətində erməni hərbi birləşmələrinin hücumlarının və təxribatlarının qarşısının alınması məqsədilə Azərbaycan Ordusunun keçirdiyi uğurlu hərbi əməliyyatlar isə Silahlı Qüvvələrimizin gücünü reallıqda təsdiqləyən hadisə oldu. Həmin döyüşlərədək Ermənistan siyasi rejimi tərəfindən belə bir mif yaradılmışdı ki, işğalçı dövlətin ordusu və onların yaratdığı istehkamlar keçilməzdir. Lakin Aprel döyüşləri bunun sadəcə mif olduğunu sübuta yetirdi. Həmin günlərdə düşmən ordusu bir həmləyə biabırçı məğlubiyyətə uğradıldı və cəbhənin iki istiqamətində illərdir bərkidib-betonladığı, dinc əhalinin başına güllə, mərmi yağdırdığı mövqelərdən bir gecədə qovulub çıxarıldı. Bununla da Azərbaycanda atəşkəs razılaşmasından sonra həyata keçirilən ordu quruculuğunun effektiv nəticələri, Silahlı Qüvvələrimizin döyüş qabiliyyətinin artırılması istiqamətində atılan addımlar dördgünlük müharibədə öz təsdiqini tapdı.

Həmin döyüşlər bizim böyük tarixi qələbəmiz, Ermənistanın isə həm siyasi, həm iqtisadi, həm də psixoloji cəhətdən məğlubiyyəti kimi tarixə düşdü. Bu hadisə demək olar ki, Ermənistanın ideoloji əsaslarını dağıtdı, bu ölkənin rəhbərliyi məğlubiyyətdən sonra özünü tam şəkildə ifşa etdi. Onlar həm döyüş meydanında acı məğlubiyyətə uğradılar, həm də siyasi meydanda heç bir dəstək almadılar. Həmçinin düşmən bir daha şahidi oldu ki, Azərbaycan əzəli torpaqlarını qısa müddət ərzində geri qaytarmağa qadirdir.

Aprel döyüşləri mühüm hərbi qələbə olmaqla yanaşı, beynəlxalq arenada bütün diqqəti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə cəlb etdi. Hadisələr Azərbaycan əsgərinin döyüş və mənəvi-psixoloji hazırlığının, qələbə əzminin yüksək olduğunu nümayiş etdirdi. Bu döyüşlər dövlətimizin və ordumuzun gücünü, xalqın birliyini, həmrəyliyini, vətənpərvərliyini, Azərbaycanın heç vaxt işğalla barışmayacağını, nəyin bahasına olursa-olsun ərazi bütövlüyünü bərpa etmək əzmində olduğunu bir daha göstərdi. Ermənistan hakimiyyəti bir daha gördü ki, xalqımız heç vaxt ərazilərinin işğalı ilə barışmayacaq və torpaqlarında ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcəkdir.

Naxçıvanda Günnüt kəndinin işğaldan azad olunması və Ermənistanla sərhəddə strateji yüksəkliklərin ələ keçirilməsi Azərbaycan Silahlı Qüvvələrinin 2016-cı ilin aprel qələbəsindən sonra növbəti zəfəri oldu. Xalq Cümhuriyyətinin və ordumuzun yaradılmasının yüzüncü ildönümünə təsadüf edən bu hadisə cəmiyyətimizin xoş ovqatını daha da artırdı, düşmən üzərindəki qələbə gününün o qədər də uzaqda olmadığını göstərdi. Hər birimiz növbəti dəfə ordumuzdakı qalibiyyət əzminin şahidi olduq.

Günnüt əməliyyatı zamanı Azərbaycan Silahlı Qüvvələrinin tərkib hissəsi olan Əlahiddə Ümumqoşun Ordu ön xəttin dövlət sərhədi boyu əlverişli mövqeləri ələ keçirdi. Dərinlikdəki əlverişli yüksəkliklər düşməndən geri alındı. Bu, ordumuza Qızılqaya yüksəkliyinin ən böyük strateji əhəmiyyətli Yerevan-Yexeqnddzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət etmək imkanı verdi. Ümumilikdə, bu əməliyyat zamanı 11 min hektar ərazi düşməndən azad edildi.

## Torpaqlarımızın azad ediləcəyi gün uzaqda deyil

Bu gün dünyanın hərbi baxımdan inkişaf etmiş dövlətlərinin malik olduqları silahlar Azərbaycanda var. Beynəlxalq reytinq agentliklərinin hesabatlarında Silahlı Qüvvələrimiz dünyanın güclü, müasir standartlara uyğun təchiz edilən orduları ilə bir sırada yer alır.

Fərəhlisi odur ki, Azərbaycanın hərbi sənaye kompleksi də formalaşıb. Bu gün Azərbaycan Cənubi Qafqazda öz ordusunu daxili imkanları hesabına hərbi texnika və silah-sursatla təchiz etmək gücünə malik olan yeganə ölkədir. Ölkəmizdə son illərdə formalaşan və dinamik templə inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla ordumuzu əhəmiyyətli dərəcədə təchiz edə bilir.

Ordumuzda aparılan əsas islahatlardan biri də hərbi şəhərciklərin, kazarmaların yenidən qurulması, hərbçilərin, onların ailə üzvlərinin yaşayış şəraitinin yaxşılaşdırılmasıdır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən son illərdə ölkənin bütün ərazilərini əhatə etməklə yeni hərbi şəhərciklər inşa olunub, hərbi qulluqçuların mənzil və sosial şəraiti əhəmiyyətli dərəcədə yüksəlib.

Bütün bunlar göstərir ki, Azərbaycanda ordu quruculuğu sahəsində aparılan islahatlar kompleks şəkildə həyata keçirilir. Həm ordunun arsenalına ən modern silahlar daxil edilir, həm qoşun növlərinin döyüş qabiliyyəti artırılır, həm də hərbçilərin sosial şəraiti yüksəldilir.

Modern ordu quruculuğu danışıqların nəticəsiz olacağı təqdirdə ərazilərimizin hərb yolu ilə işğaldan azad edilməsi üçün Azərbaycanın üstünlüyünü təmin edir. Bu gün istər hərbi müstəvidə, istərsə də diplomatik sferada üstünlük Azərbaycanın tərəfindədir. Əgər danışıqlar prosesi düşmənin işğalçı siyasəti ucbatından nəticəsiz qalacaqsa, Azərbaycan Ordusu öz sözünü deyəcək. Görünən odur ki, bayrağımızın Şuşada, Xankəndidə, Ağdamda və digər işğal olunmuş şəhər və kəndlərimizdə dalğalanacağı gün uzaqda deyil.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# "Aqrarkredit" QSC ilə Asiya İnkişaf Bankı arasında gələcək əməkdaşlıqla bağlı videokonfrans keçirilmişdir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu sosial-iqtisadi siyasət nəticəsində Azərbaycanın bütün regionlarında sahibkarlığın inkişafı, xüsusən də dayanıqlı iqtisadiyyatın qurulması istiqamətində mühüm addımlar atılmışdır.

Sərbəst bazar münasibətlərinə, özünütənzimləmələrə əsaslanan iqtisadi sistemdə insanların sosial müdafiəsinə və yüksək rifahına hesablanmış müxtəlif layihələrin, ən başlıcası, mənəvi-etik dəyərlərin yad təsirlərdən qorunması kimi nəcib işlər xüsusilə aktualdır. Hazırda bu nəcib missiyanı yüksək mənəvi məsuliyyətlə üzərinə götürərək şərəflə, əzmlə, təmənnasız həyata keçirən insanlar arasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ölkə iqtisadiyyatının aktual problemlərinə olan həssas münasibəti Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir.

Prezident İlham Əliyev tərəfindən davamlı olaraq həyata keçirilən kompleks islahatlar, inzibati prosedurların sadələşdirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi, investisiya mühitinin yaxşılaşdırılması tədbirləri və institusional dəstək mexanizmlərinin tətbiqi iqtisadiyyatın inkişafını təmin etmişdir. Bunun nəticəsidir ki, ölkədə sahibkarlıq fəaliyyəti inkişaf edir, bütün regionları əhatə etməklə yeni istehsal və xidmət sahələri yaradılır, rəqabətqabiliyyətli məhsul istehsalı imkanları genişlənir, özəl bölmənin ümumi daxili məhsulda və məşğulluqda xüsusi çəkisi artır.

Məhz bunun nəticəsidir ki, Azərbaycan bu gün nüfuzlu beynəlxalq təşkilatların, o cümlədən maliyyə qurumlarının diqqət mərkəzindədir. Buna əyani misal kimi bu il iyunun 1-də Asiya İnkişaf Bankının təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə bankın prezidenti cənab Masatsuqu Asakava və bankın digər rəhbər nümayəndələri arasında videokonfransın keçirilməsini göstərmək olar.

Bu konfransda Azərbaycanla Asiya İnkişaf Bankı arasında qarşılıqlı faydalı əməkdaşlıq məsələləri, Azərbaycanın kənd təsərrüfatının inkişafı, peşə təhsili, kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi, bərpaolunan enerji layihələrinin həyata keçirilməsi, dəmir yolu sisteminin təkmilləşdirilməsi və s. infrastruktur layihələri ilə bağlı məsələlər müzakirə olunmuşdur. Həmin görüşdə Prezident cənab İlham Əliyev Asiya İnkişaf Bankının infrastruktur layihələri ilə bağlı Azərbaycanın dayanıqlı inkişafına böyük töhfə verdiyini, Azərbaycan və Asiya İnkişaf Bankının son 20 ildə olduğu kimi, bundan sonra da iqtisadiyyatın bir çox sahələrində sıx şəkildə işləməyə davam edəcəyini vurğulamışdır.

Konfransda səslənən məsələlərin icrası olaraq 2020-ci il iyun ayının 24-də "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının ("Aqrarkredit" QSC) rəhbərliyi ilə Asiya İnkişaf Bankının Azərbaycan nümayəndəliyinin rəhbərliyi arasında videokonfrans keçirilmişdir.

Videokonfransın əsas məqsədi "Aqrarkredit" QSC ilə Asiya İnkişaf Bankı arasında əməkdaşlığın qurulması, gələcək perspektivdə bir sıra layihələrin birgə icrası olmuşdur.

Qeyd edək ki, "Aqrarkredit" QSC ölkədə iqtisadi fəallığın və əhalinin rifah halının yüksəldilməsinə kömək göstərmək, qeyri-neft sektorunun, xüsusilə kənd təsərrüfatının inkişafına töhfə vermək məqsədilə real sektora, o cümlədən kənd yerlərində fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarıq subyektlərinə kredit xidmətini genişləndirmək məqsədilə beynəlxalq əməkdaşlığa xüsusi önəm verir.

Görüş zamanı "Aqrarkredit" QSC-nin İdarə Heyətinin sədri Məmməd Musayev çıxışında "Aqrarkredit" QSC-nin ölkənin kənd təsərrüfatına kredit xidməti göstərən ən böyük maliyyə qurumlarından biri olduğunu qeyd etdi və onun son illərdəki fəaliyyəti barədə ətraflı məlumat verdi. Kredit təşkilatı fəaliyyətində beynəlxalq maliyyə qurumları, xarici ölkələrin maliyyə təşkilatları və onların Azərbaycan nümayəndələri ilə əməkdaşlığa xüsusi əhəmiyyət verdiyini bildirən Məmməd Musayev kredit təşkilatının beynəlxalq əlaqələrdə böyük təcrübəyə malik olduğunu, bir çox kənd təsərrüfatı layihələrinin icrasını uğurla başa vurduğunu, elə bu çərçivədə Asiya İnkişaf Bankı ilə əməkdaşlıq etmək niyyətində olduqlarını vurğuladı.

Asiya İnkişaf Bankının Azərbaycan nümayəndəliyinin rəhbəri cənab Nariman Mannapbekov isə çıxışında birgə layihələrin həyata keçirilməsi üçün ölkədə münbit şəraitin mövcud olduğunu vurğuladı. Bu aspektdə Asiya İnkişaf Bankı olaraq "Aqrarkredit" QSC ilə gələcək əməkdaşlığa önəm verdiklərini və kredit təşkilatının fəaliyyəti barədə son illərin maliyyə hesabatları ilə daha yaxından tanış olmaq istədiklərini bildirdi.

Videogörüşdə "Aqrarkredit" QSC-nin və Asiya İnkişaf Bankının Azərbaycan nümayəndəliyinin digər əməkdaşları da gələcək əməkdaşlıq barədə konkret addımlarla bağlı öz fikirlərini bildirdilər.

İclasın nəticəsinə əsasən, tərəflər arasında 10 gün sonra yeni görüşün keçirilməsi və əməkdaşlıq barədə memorandum imzalanmasının məqsədəuyğunluğu vurğulandı.

*"Azərbaycan"*

SOCAR
SOCAR PETROLEUM QSC
xalqımızı
26 İyun - Silahlı Qüvvələr Günü
münasibətilə təbrik edir,
sülh, əmin-amanlıq,
xoş gələcək arzulayır!




# "İstiqlal keşikçiləri" adlı videokonfrans təşkil olunub




İyunun 25-də Mənəvi Dəyərlərin Təbliği Fondu və "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin birgə təşkilatçılığı ilə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaradılmasının 102-ci ildönümünə həsr olunmuş "İstiqlal keşikçiləri" adlı videokonfrans təşkil olunub. Videokonfransda QHT sədrləri, müxtəlif universitetlərin tələbə gənclər təşkilatları, KİV nümayəndələri, ziyalılar, şəhid ailələri və Qarabağ qaziləri iştirak edib.

Konfransı giriş sözü ilə açan "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Alızadə Azərbaycan Ordusunun yaranma tarixindən, ordunun xalqımızın həyatındakı rolundan danışaraq, şəhidlərimizin əziz xatirəsini daima uca tutmağı gənclərimizə tövsiyə edib.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov çıxışında qeyd edib ki, tədbirin adı təsadüfən "İstiqlal keşikçiləri" adlandırılmayıb. Ordu həqiqətən bir xalqın, millətin müstəqilliyinin, ərazi bütövlüyünün təminatıdır.

Qarabağ qazilərindən baş leytenant Əhliyət Mehdiyev, kapitan Anar Məmmədov və baş gizir Zamiq Əsgərov vətənin müdafiəsi uğrunda sağlamlıqlarını itirsələr də, hər zaman doğma torpaqlarımızın müdafiəsi yolunda döyüşə hazır olduqlarını bildiriblər. Azərbaycan Respublikasının Gənclər Təşkilatı Milli Şurasının sədri Məryəm Məcidova qeyd edib ki, gənclərimiz hər bir zaman olduğu ölkədən, tutduğu statusdan asılı olmayaraq Azərbaycan həqiqətlərini dünya gənclərinə çatdırmağa nail olmalıdırlar. KİV rəhbərləri Elşad Eyvazlı və Zaur Əhməd vətənpərvərliyin təbliğində ictimai təbliğatın vacibliyini vurğulayıblar.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov tələbələrin bu kimi tədbirlərdə iştirakını müsbət hal kimi qiymətləndirib, gəncliyin üzərinə böyük bir vəzifə qoyulduğunu qeyd edib.

Müxtəlif universitetlərin tələbə gənclər təşkilatlarının üzvləri videokonfransda çıxış edərək, Azərbaycan naminə daima mübarizə aparmağa, şəhidlərimizin, qəhrəmanlarımızın xatirəsini uca tutmağa, vətənimizin bütövlüyü uğrunda hər bir mübarizəyə hazır olduqlarını bildiriblər. Tədbirdə tələbələrin ifasında vətənpərvərlik ruhunda şeir və mahnılar ifa edilib.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Nazirlər Kabineti: Məhdudiyyətlərin səmərəliliyinin artırılması istiqamətində əlavə tədbirlər görüləcək

Son günlərdə koronavirus infeksiyasına yoluxanların sayında ciddi artım müşahidə olunur. Təhlil və müşahidələr göstərir ki, müəyyən olunmuş xüsusi karantin qaydaları, sanitar-epidemioloji tələblər gözlənilən nəticələri vermir.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bir sıra hallarda sahibkarlıq subyektləri Operativ Qərargahın mümkün qədər işə az əməkdaş çıxarmağa dair tövsiyələrinə baxmayaraq, bütün işçi heyətini tam tərkibdə, yaxud da böyük əksəriyyətini "İcazə.e-gov.az" portalından qeydiyyatdan keçirərək işə çıxmaları üçün birdəfəlik icazələr alır. Eyni zamanda fəaliyyətinin davam etdirilməsinə icazə verilməmiş özəl hüquqi şəxslər də bəzi hallarda mühafizə və texniki təhlükəsizliyin təmin edilməsi üçün zəruri olandan xeyli artıq sayda əməkdaşları qeydiyyatdan keçirirlər. Belə yanaşmalar müəyyən olunmuş məhdudiyyət tədbirlərinin səmərəsini azaldır, əhalinin sağlamlığı üçün ciddi təhlükə yaradır.

Bununla əlaqədar Nazirlər Kabineti yanında Operativ Qərargah xüsusi karantin rejimində işə çıxmasına icazə verilənlərin sayı ilə bağlı müəyyən olunmuş bir sıra məhdudiyyətlərin sərtləşdirilməsi məsələsinə yenidən baxılmasını zəruri hesab edir və bu istiqamətdə vacib olan bütün qərarları qəbul edəcək.

# Azərbaycanda koronavirusa daha 547 yoluxma faktı qeydə alınıb, 291 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 547 yoluxma faktı qeydə alınıb, 291 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 6 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 14 min 852 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 8059 nəfər müalicə olunaraq sağalıb, 180 nəfər vəfat edib. Aktiv xəstə sayı 6613 nəfərdir.

Ötən müddət ərzində 449 min 235 test aparılıb. Bugünkü test sayı isə 7274-dür.




# On rayona yeni prokurorlar təyin edilib

Azərbaycan Respublikasının prokurorluq orqanlarında kadr korpusunun komplektləşdirilməsi istiqamətində işlər həyata keçirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş prokuror Kamran Əliyevin imzaladığı müvafiq əmrlərlə Anar Cəfərov Ağstafa, Vasif Süleymanov Ağdam, Vahid Məmmədov Cəlilabad, İlkin Mustafayev Laçın rayonunun prokuroru, İsmayıl Qayıbov Baş Prokurorluğun Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin rəis müavini, Qabil Qasımov isə Baş Prokurorluğun Prokurorluqda istintaqa nəzarət idarəsinin rəis müavini vəzifələrinə təyin ediliblər.

Bundan başqa, Baş prokurorun imzaladığı əmrlərlə Rəşad Bəşirova Qax, Vəli Mustafayevə Masallı, Adil Vəliyevə Saatlı, Rasim Musayevə Zaqatala, Əli Əliyevə Astara, Nəsif Nəcəfova isə Neftçala rayonunun prokuroru vəzifələrinin icrası həvalə olunub.

Kadr korpusunun peşəkarlıq və mənəvi keyfiyyətlərinə görə işçilərlə formalaşdırılması istiqamətində islahatlar davam etdirilir.

# 8103-ə göndərilən SMS-lərə cavab 15 dəqiqə ərzində gələcək




Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən aparılmış araşdırmalar nəticəsində bəzi vətəndaşlar tərəfindən 8103 SMS icazə sistemi ilə bağlı sui-istifadə hallarına yol verildiyi aşkarlanıb. Müəyyən olunub ki, cavabın qısa müddət ərzində (99,4 faiz müraciət 1 dəqiqə ərzində) gəlməsindən sui-istifadə edən bəzi vətəndaşlar evdən çıxarkən deyil, yalnız polis yoxlama məntəqələrinə yaxınlaşarkən SMS müraciət edirlər. Agentliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, qeyd olunanlar nəzərə alınaraq, 8103 SMS icazə sisteminin fəaliyyətində dəyişiklik edilib. Belə ki, artıq vətəndaşlar tərəfindən müvafiq kod üzrə müraciət olunduğu zaman cavab SMS-i 15 dəqiqə ərzində gələcək.

Eyni zamanda "E-Təbib" mobil tətbiqi vasitəsilə edilən bu cür müraciətlərə cavab 5 dəqiqə ərzində təmin olunacaq.

Vətəndaşlar yaşayış yerini yalnız müsbət cavab aldıqdan sonra tərk edə bilərlər. Vətəndaşların müraciətinə gələn cavab SMS-ində icazənin qüvvədə olduğu müddət göstərilir.

Evdən çıxmaq istədiklərinə dair vətəndaşlar tərəfindən icazə əldə etmək üçün 8103 qısa nömrəsinə 3 milyon 475 min SMS göndərilib ki, bunlardan da 774 mini, yəni 22 faizi aidiyyəti olmayan məzmunla bağlı göndərildiyindən təsdiq cavabı almayıb.

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 30 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı silahlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistanın Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Ağdam və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.




# Prezident İlham ƏLİYEV: «İlk növbədə, insanların həyatı və onların sağlamlığıdır»

## Pandemiyanın miqyasından asılı olmayaraq, ilin sonuna qədər insanların yaşayış səviyyəsi dəyişməz olaraq qalmalıdır

*Əvvəli 1-ci səh.*

Martın sonunda istifadəyə verilmiş "Yeni klinika" müasir tibb müəssisəsi koronavirus xəstələrinin müalicəsi üçün ayrılmışdı. Dövlət başçısı İlham Əliyevin təşəbbüsü ilə 10 modul tipli yeni xəstəxananın tikintisinə start verilmişdi.

Pandemiya ilə mübarizədə əhəmiyyətli rol oynayan bu xəstəxanalardan ikisi Bakıda, biri Sumqayıtda, biri isə Abşeron rayonunda artıq fəaliyyətə başlayıb.

### Modul tipli xəstəxanalar COVID-19-a qarşı mübarizədə mühüm əhəmiyyət kəsb edəcək

İyunun 24-də isə Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə 1 saylı Gəncə Şəhər Xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusunun açılışı oldu. Üç korpusdan ibarət, ümumilikdə, 100 palata və 200 çarpayılıq yeri olan bu xəstəxana kompleksi mərkəzləşdirilmiş oksigen generator sistemi, həmçinin xüsusi havalandırma sistemi ilə təchiz edilib. Bu sistem havanı ventilyasiya qurğusu ilə təmizlədikdən sonra palatalara ötürəcək. Yeni korpusda orta simptomları olan infeksion koronavirus xəstələrinin qəbulu və müalicəsi üçün yüksək şərait yaradılıb. Eyni zamanda daha ağır simptomları olan xəstələrin qəbulu üçün əlavə avadanlıqlarla təchiz olunması istiqamətində işlər görülür.

Bu, artıq istifadəyə verilmiş 5-ci modul tipli xəstəxanadır. 200 çarpayılıq, müasir texnologiyalar əsasında quraşdırılan modul tipli xəstəxanaların açılması koronavirusla mübarizə sahəsində effektli qabaqlayıcı tədbirlərin bariz nümunəsidir. Yaxın həftələrdə digər şəhərlərdə də bu tipli xəstəxanalar istifadəyə veriləcək və onların sayı 10-a çatdırılacaq. Beləliklə, əlavə 2 min çarpayı yeri olacaq. Son həftələr koronavirus xəstələrinin sayının artdığını nəzərə alsaq, bu, COVID-19-a qarşı mübarizədə mühüm əhəmiyyət kəsb edəcək.

Dövlət başçısı bu xəstəxanaların tikintisi ilə əlaqədar qərarı aprel ayında qəbul etmişdi. O vaxt xəstələrin sayı kifayət qədər az, sağalanların sayı isə daha çox idi. Hazırda koronavirus xəstələrinin sayının artması, nəticədə daha çox çarpayıya ehtiyacın yaranması bu xəstəxanaların tikintisi ilə əlaqədar qərarın qəbul edilməsinin nə qədər düzgün olduğunu aydın şəkildə göstərir. Son illər ərzində Azərbaycanın hər bir yerində, o cümlədən Bakı şəhərində müasir xəstəxanalar tikilməsəydi, bu gün koronavirusla mübarizədə çox böyük problemlərlə üz-üzə qala bilərdik. 16 il ərzində ölkəmizdə 700-dən çox səhiyyə ocağı tikilib və ya yenidən qurulub.

Prezident İlham Əliyev 1 saylı Gəncə Şəhər Xəstəxanasında çıxışı zamanı Bakıda koronavirus xəstələrinin daha çox son illər ərzində inşa edilmiş xəstəxanalarda müalicə aldıqlarını bildirib. Məsələn, təxminən 600 çarpayılıq böyük, müasir tibb ocağı olan "Yeni klinika"da bu gün koronavirus xəstələri müalicə alır. Eyni zamanda Azərbaycan Tibb Universitetinin Tədris-Terapevtik və Cərrahiyyə korpusları, digər tibb müəssisələri koronavirusa yoluxmuş vətəndaşların müalicəsində mühüm rol oynayırlar.

### Sərtləşdirilmiş tədbirlərin əsas məqsədi yoluxmanın sürətini azaltmaqdır

Dövlət başçısı qeyd edib ki, koronavirusla əlaqədar ilkin mərhələdə dövlətin həyata keçirdiyi qabaqlayıcı tədbirlər ölkəni böyük fəlakətdən qorudu. Çünki Azərbaycanda yoluxanların sayı əhalinin ümumi sayı ilə müqayisədə çox aşağıdır. İnfeksiyaya yoluxanların böyük əksəriyyəti sağalıb və xəstəxanalardan çıxıb. Qabaqlayıcı və məhdudlaşdırıcı tədbirlərin çox böyük faydası olub: "Bildiyiniz kimi, bütün dünya bu xəstəlikdən əziyyət çəkir və xəstələrin sayının kəskin artması bir çox ölkələrin səhiyyə sisteminə də böyük zərbə vurmuşdur. Əslində, heç bir ölkənin səhiyyə sistemi belə sürətlə artan xəstələrin müalicəsinə hazır deyildi. Bu, mümkün də deyildi. Eyni zamanda digər problem xəstələrə xidmət edən həkimlərin sayı ilə bağlıdır. Həkimlərin sayı 2-3 ay ərzində arta bilməz. Ona görə bu da bir çox ölkələr üçün böyük problemə çevrilmişdir, o cümlədən bizim üçün. Odur ki, məhdudlaşdırıcı tədbirlərin görülməsində böyük fayda olmuşdur".

Görülən tədbirlər nəticəsində sağalanların sayı yoluxanların sayından çox olduğuna görə mayın əvvəlindən karantin rejimi yumşaldılmağa başlandı. Lakin yumşalma tədbirlərindən sonra Azərbaycanda sanitar-epidemioloji qaydalar kütləvi surətdə pozulduğu üçün yenidən məhdudlaşdırıcı tədbirlər tətbiq olundu. Çünki ölkədə xəstələnənlərin sayı, dinamikası artır və belə davam edərsə, səhiyyə sistemimiz buna davam gətirə bilməz. Məhz bu səbəbdən iyunun 21-dən daha sərt karantin rejimi tətbiq edildi. Bunun əsas və yeganə səbəbi odur ki, bəzi insanlar elementar qoruyucu qaydalara əməl etmirlər.

"Bu sərtləşdirilmiş rejim nə qədər davam edəcək, bunu həyat və koronavirusun yayılması göstərəcək. Həkimlər yaxşı bilirlər və artıq ictimaiyyətə də dəfələrlə bu fikir çatdırılıb ki, sərtləşdirilmiş tədbirlərin əsas məqsədi yoluxmanın sürətini azaltmaqdır. Hər kəs yaxşı başa düşür ki, koronavirus yoxa çıxmayıb və yoxa çıxmayacaq. Biz bu xəstəliklə yaşamağa məcburuq və artıq kütləvi surətdə yeni davranış qaydaları tətbiq edilməlidir. Ona görə bütün ölkələrin əsas səyləri odur ki, yoluxmanın sürəti azalsın, az insan xəstələnsin və ölkələrin səhiyyə sistemi imkan versin ki, bütün xəstələr lazımi müalicə alsınlar. Odur ki, biz bu addımı atdıq və hesab edirəm ki, düz etmişik, baxmayaraq ki, indi bəzi ölkələr daha da irəliyə gedərək, daha çox yumşaldıcı addımlar atır. Təbii ki, bunun əsas səbəbi iqtisadi sahədə olan problemlərdir", - deyə dövlət başçısı əlavə edib.

### Azərbaycan dövləti hər zaman vətəndaşının yanındadır

Azərbaycan ilin əvvəlində çox yaxşı iqtisadi göstəricilər nümayiş etdirdi. Bütün aparıcı beynəlxalq maliyyə qurumları 2020-ci ili Azərbaycanda sürətli inkişaf ili kimi görürdülər. Buna baxmayaraq, ölkədə şüurlu şəkildə məhdudlaşdırıcı tədbirlər həyata keçirildi. Azərbaycan dünyada ilk ölkələrdən idi ki, kütləvi yoluxmanın qarşısını almaq üçün bütün təhsil ocaqlarını, ictimai iaşə obyektlərini, böyük ticarət mərkəzlərini bağladı. Bu məhdudlaşdırıcı tədbirlərin görülməsinin səbəbi insanların sağlamlığının əsas prioritet təşkil etməsidir.

Lakin dünya bazarlarında neftin qiymətinin enməsi Azərbaycanın gəlirlərini azaltdı. Sürətlə inkişaf edən turizm sektorunun dayanması, bir neçə başqa perspektivli sektorun fəaliyyətdən qalması iqtisadiyyatın durumuna mənfi təsir göstərdi. Baxmayaraq ki, ölkənin gəlirləri azaldı, bir neçə önəmli iqtisadi sahə demək olar ki, fəaliyyətsiz qaldı, dövlət o sektorların və orada çalışan insanların problemlərini öz üzərinə götürdü. 600 mindən çox insan lazım olan vəsaitlə təmin edildi, 190 manatın verilməsi müddəti uzadıldı. İşini itirmiş, aztəminatlı təbəqəyə aid olan, hətta qeyri-rəsmi şəkildə işləyən insanlara dövlət öz köməyini göstərdi. Heç bir sosial layihə ixtisar edilmədi. Məcburi köçkünlər üçün yeni şəhərciklər salınır, yeni məktəblər, yaşayış kompleksləri tikilir.

Dövlət başçısı bəyan etdi ki, koronavirus pandemiyasının miqyasından asılı olmayaraq, ilin sonuna qədər insanların yaşayış səviyyəsi dəyişməz olaraq qalmalıdır: "Azərbaycan dövləti hər zaman Azərbaycan vətəndaşının yanındadır. Ona görə həm birinci mərhələdə - sərtləşdirilmiş məhdudlaşdırıcı tədbirlər tətbiq olunanda və bu gün biz məcbur olub növbəti dəfə bu addımlara getdik, şəxsən mənim üçün seçim yox idi. İlk növbədə, insanların həyatı və onların sağlamlığıdır. İqtisadi problemlər arxa planda olmalıdır.

Bir də ki, biz son illər ərzində görülmüş işlər, aparılmış islahatlar nəticəsində iqtisadi gücümüzü böyük dərəcədə artırmışıq. Bizim iqtisadiyyatımız sabit, dayanıqlı iqtisadiyyatdır. Hesab edirəm ki, bu ilin sonuna qədər iqtisadi sahədə problemlər kəskinləşsə də, insanların həyat tərzinə bunun böyük təsiri olmayacaqdır".

COVID-19 infeksiyasının geniş yayılmasının qarşısının alınması ilə əlaqədar dövlət tərəfindən həyata keçirilən bütün tədbirlər vətəndaşların təhlükəsizliyinin təmin edilməsi, Azərbaycanın hər bir sakininin sağlamlığının qorunması məqsədini daşıyır. Dövlət üzərinə düşən vəzifələri layiqincə həyata keçirir. İndi qalır vətəndaşların üzərinə düşən vəzifələr - tibbi maska taxmaq, sosial məsafəni gözləmək, dezinfeksiya qaydalarına riayət etmək. Bu şəraitdə koronavirusla mübarizədə uğurun əsas şərti məhz vətəndaşların məsuliyyətindən, nizam-intizamından asılıdır. Mübarizədə cəmiyyət olaraq birlik, həmrəylik nümayiş etdirməli, tətbiq edilən qaydalara intizamla yanaşmalıyıq. Bu, hər birimizin vətəndaş borcudur. Məsuliyyətli olaq, özümüzü, ailəmizi, ətrafımızı, dolayısı ilə xalqımızı gözəgörünməz düşməndən qoruyaq.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Epidemiya vəziyyəti məhdudlaşdırıcı tədbirləri zəruri edir

*Əvvəli 1-ci səh.*

### Normal həyata dönməyimizi əlçatmaz edənlər

Təəssüf ki, xüsusi karantin rejimi yumşaldılandan və sərt qadağalar aradan qaldırılandan sonra yeni yoluxma hallarının sayında artım müşahidə olunmağa başlandı, əldə edilmiş pozitiv nəticəni qoruyub saxlamaq mümkün olmadı. Buna görə də son zamanlar gün ərzində koronavirusa yoluxma sayının hətta 500 nəfəri keçməsinin şahidi oluruq.

İnfeksiya səbəbindən tətbiq edilən məhdudiyyətlər aradan qaldırıldıqca ölkəmizdə koronavirus infeksiyasına yoluxma hallarının çoxalmasına səbəb isə Operativ Qərargah tərəfindən müəyyən olunmuş qaydalara, sosial izolyasiya tədbirlərinə əməl edilməməsi, xüsusilə maska taxılmaması olmuşdur.

Beləliklə, artan yoluxma sayı pandemiyaya qarşı ölkəmizdə həyata keçirilən effektiv tədbirləri minimuma endirir və bu, davam edərsə, daha acı nəticələrlə üzləşəcəyimiz barədə SOS siqnalı verir. Məsələnin ən təhlükəlisi isə bir sıra məsuliyyətsiz şəxslərin hələ də vəziyyətin ciddiliyinə, kritikliyinə etinasız yanaşmasıdır. Belələrinin xüsusi karantin rejimi qaydalarını pozmasıdır, ictimai yerlərdə məsafə saxlamaması, qapalı məkanlarda maskadan istifadə etməməsidir. Bu qaydaların həyati əhəmiyyətinin mahiyyətinə varmayaraq, sadəcə cərimələnməmək, polisə yaxalanmamaq üçün formal olaraq üzərində maska gəzdirməsi, min bir bəhanə ilə qaydaları pozmaq cəhdidir. Çox sadə qaydalara əməl edərək yaşamaq əvəzinə bütün ölkəni, insanları təhlükəyə sürüməyə davam etməsidir.

Onlar pandemiyadan əvvəlki həyat tərzlərində yaşamağa cəhd edirlər. Daha düşünmürlər ki, hazırda atdıqları həmin bu yanlış addımlar nəticəsində normal həyata qayıtmağımızı bir az da uzağa, əlçatmaz yerlərə daşıyırlar...

### "Bu qaydalara əməl etmək o qədər də böyük əziyyət tələb etmir"

Prezident İlham Əliyev iyunun 24-də 1 saylı Gəncə Şəhər Xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusunun açılışında çıxışı zamanı da vurğuladı ki, son müddətin dinamikası göstərir ki, bütün tələblərə baxmayaraq, bəzi insanlar məsuliyyətsizlik göstərərək elementar qaydalara əməl etmirlər: "Bu qaydalar haqqında artıq bəlkə min dəfə deyilib. Həm mən demişəm, həkimlər deyib, tibb mütəxəssisləri deyib, müxtəlif insanlar deyib. Təkcə Azərbaycanda yox, bütün dünyada bu qaydalar çox sadədir və onlara əməl etmək o qədər də böyük əziyyət tələb etmir - maska, məsafə və dezinfeksiya. Bu üç əsas amil insanları qoruyur. Əgər bu üç amilə əməl olunarsa, onda yoluxmanın sayı kəskin azalacaq. Ancaq biz nəyi görürük? Onu görürük ki, yumşalma tədbirlərindən sonra Azərbaycanda bu qaydalar kütləvi surətdə pozulur və məhz buna görə biz yenidən məhdudlaşdırıcı tədbirləri tətbiq etdik".

### "Bu sərtləşdirilmiş rejim nə qədər davam edəcək, bunu həyat və koronavirusun yayılması göstərəcək"

Yoluxma sayının artması, ilk növbədə, səhiyyə sisteminə sarsıdıcı təsir göstərir. Təbii ki, ölkəmizdə bu xəstələrin yerləşdirilməsi üçün kifayət qədər xəstəxanalar var. Amma müəyyən bir həddən sonra həmin xəstələri müalicə edəcək həkim sayında problemlər yaşaya bilərik. Elə buna görə də Azərbaycanda yenidən məhdudlaşdırıcı tədbirlərə zərurət yarandı.

Dövlət başçısı xəstəxananın açılışındakı nitqində bu məsələyə də xüsusi toxundu: "Bunun əsas və yeganə səbəbi odur ki, əfsuslar olsun, bəzi insanlar elementar qoruyucu qaydalara əməl etmirlər. Bu sərtləşdirilmiş rejim nə qədər davam edəcək, bunu həyat və koronavirusun yayılması göstərəcək".

### Milli təhlükəsizlik məsələsi

Epidemiya əleyhinə, sanitariya-gigiyena və karantin rejimləri dövründə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə edilməməsinə görə cərimələr müəyyənləşdirilib və karantin tələblərini pozanlar məsuliyyətə cəlb olunurlar. Lakin görünən odur ki, qabaqlayıcı tədbirlər belə qayda pozuntularının qarşısını tam ala bilmir. Bu arzuolunmaz hallar isə cərimələrin məbləğinin artırılmasının vacibliyi fikrini ortaya çıxarır.

Qeyd edək ki, hələ pandemiyanın ilk dalğası zamanından bir çox ölkələrdə karantin şərtlərinə əməl etməyənlər həm ciddi cəzalandırılır, həm də yüksək məbləğdə cərimələnirlər. Görünür, ölkəmizdə də bu üsullara əl atılmasına ehtiyac var.

Eyni zamanda dövlət orqanları, yerli icra orqanları, hüquq mühafizə orqanları tərəfindən bu məsələyə daha ciddi nəzarət olunmalıdır. Dövlət başçısının da vurğuladığı kimi, bu, milli təhlükəsizlik məsələsidir. Dövlət nəzarəti, ictimai nəzarət, vətəndaşların nizam-intizamı və məsuliyyəti artmalıdır.

### İctimai qınaq mütləqdir

Təsdiq olunan faktdır ki, pandemiya ilə mübarizə strategiyasını düzgün müəyyənləşdirən dövlətlər minimum itki ilə bu bəla ilə savaşa bilirlər. Elə ölkəmiz də effektiv qabaqlayıcı tədbirlər sayəsində hər an vətəndaşlarının sağlamlığı və təhlükəsizliyinin keşiyindədir. Amma virusa qarşı təsirli dərman müalicəsi və vaksin tapılana qədər bəlanın sovuşduğunu düşünmək və arxayınlaşmaq olmaz. COVID-19 yer üzündən yox olmayıb və insanların həyatını, sağlamlığını təhdid etməkdə davam edir.

Hər kəs ictimai nəqliyyatda, ofislərdə, alış-veriş mərkəzlərində və digər yerlərdə maskadan istifadə etməli, məsafə saxlamalı, şəxsi gigiyena qaydalarına riayət etməlidir.

Bunlarla yanaşı, qaydalara riayət etməyənlərə qarşı ictimai qınaq olmalıdır. Yalnız bu cür, təhlükəyə və təhlükə yaradanlara qarşı birgə mübarizə apararaq, həmrəy olaraq müsbət nəticə əldə etmək mümkündür. Gözləməməliyik ki, hər yerdə imdadımıza polis yetişsin.

### Təhlükənin mənbəyi: məsuliyyətsizlik, eqoizm və biganəlik

Koronavirus infeksiyası hava-damcı yolu ilə yayıldığı üçün pandemiya dövründə maska taxılması həyati vacib məsələdir.

Bir halda ki, təhlükədən qorunmaq yolu çox sadədir, nə üçün buna əməl etməyək?!

Nə üçün ölkənin birinci şəxsindən, Prezidentdən nümunə götürərək bütün qapalı yerlərdə maskadan istifadə etməyək?!

Elə dövlət başçısının özünün vurğuladığı kimi: "Mən maska ilə gəzirəm. Göstərmişəm, bir daha göstərirəm. Bütün qapalı yerlərdə maska taxıram. Yaxşı, indi Prezident bunu edirsə, niyə başqası edə bilməz? Nə çətin şeydi bu? Heç bir əziyyət vermir, heç bir problem yaratmır. Sadəcə olaraq məsuliyyətsizlik və deyə bilərəm ki, eqoizm və biganəlik".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Yarı yoldan qayıdan virus

## Yaxud kütləvi məsuliyyətsizliyin nəticəsi

Əlində mikrofon, çiynində kamera, yaxud hansısa studiyanın və ya redaksiyanın divarları arasında, bir sözlə, fərqi yoxdur harada və hansı şəraitdə kimə rəsmən bu sualı versən, cavabı aşağı-yuxarı belə olacaq: virusun yarı yoldan qayıtmasının, yəni bizim yarı yolda qalmağımızın səbəbi məsuliyyətsizliyimiz və qoyulan şərtlərə, tələblərə əməl etməməyimizdir.

Həqiqətən belədir və bunu sübut etmək üçün dəridən-qabıqdan çıxmağa, dərin müşahidə aparmağa, adamları gözaltı izləməyə ehtiyac yoxdur. İçi özümüz daxil əksəriyyətimizin gündəlik davranışına ötəri nəzər salmaq kifayətdir ki, COVID-19-la çiling-ağac oynamağımız, bəzənsə məzələnməyimiz bəlli olsun. Deyirlər maska taxın, əvvəl tapılmamasını, indi də istini bəhanə edib onu ən yaxşı halda çənəmizin altında, ən pis halda cibimizdə gəzdiririk. Məsləhət görürlər ki, bir-birinizlə sosial məsafə saxlayın, əl verib görüşməyin, zarafata salırıq. Tapşırırlar ki, tez-tez əlinizi sabunla yuyun, dezinfeksiya maddələrindən istifadə edin, bəzən əhəmiyyət vermirik, bəzən də unuduruq. Ən əsası və ən qorxulusu isə əhalinin müəyyən kəsimi arasında COVID-19-un təhlükəli virus olduğuna inam azdır və sadaladığımız məsuliyyətsiz davranışlarımızın ilkin səbəbi də məhz budur. Əks halda pandemiyanın ilk günlərində ikirəqəmli yoluxmaların sayı indi 300-ü, ölüm hallarının statistikası 100-ü üstələməzdi.

Elə isə növbəti sual yaranır: bu inamsızlığın səbəbi nədir?

Desək ki, əhalimiz vecsiz və savadsızdır, dünyada koronavirusun yayılmasından, törətdiyi can və mal problemlərindən xəbəri yoxdur, yalançı olarıq. Bu gün Azərbaycan dünyada informasiyaya əlçatanlıq sarıdan qabaqcıl ölkələrdən sayılır.

İddia etsək ki, biz xəstəliklərdən və xəstələnməkdən qorxmuruq, ən azından səmimi olmarıq. Böyük əksəriyyətimiz yayın cırhacırında sərin su içmir ki, boğazı ağrıyar, pəncərəni açmır ki, yel çəkər, kondisionerdən istifadə etmir ki, adamı qurudar, qışda isə altdan geyinib üstdən qıfıllanır ki, aşırı istiliyin ziyanı yoxdur, təki soyuq olmasın.

Uzağa getməyək, elə pandemiyanın elan olunduğu ilk dövrlər koronavirusa ciddi münasibətimizi xatırlayaq. Hansımızın üstündə spirt, maska, əlcək yox idi ki...

İndi belə məlumatlı və ehtiyatlı xalqın sıradan demirik, koronavirus kimi dünyanı lərzəyə salan qorxulu xəstəliyi qulaqardına vurmasını necə izah edəsən? Bax, bu sual ətrafında düşünməyə, daha doğrusu, subyektiv də olsa, bəzi mülahizələr irəli sürməyə dəyər.

Öncə qeyd edək ki, pandemiya ilə bağlı Azərbaycanda olan mövcud vəziyyət, yəni məsuliyyətsizliyin boynuna qoyduğumuz durum bütün ölkələrdə hökm sürür. Bir çox ölkələrdə virusun tövsiyə və məsləhətlərlə yola verilməsi isə xəstəliyə belə münasibətin hətta ali səviyyədə olmasını göstərir və etiraf edək ki, bu, boş yerdən yaranmayıb.

İndi gəlin həmin boş yerləri doldurmağa çalışaq. Bütün dünyada əhalini COVID-19-la bağlı ilk çaşdıran onun mənşəyi, yayılması, təhlükəsi haqqında mütəxəssislərdən daha çox siyasətçilər, artistlər, aktyorlar, şoumenlər və teleaparıcıların danışması (daha doğrusu danışdırılması) oldu. Həkimlər, virusoloqlar, epidemioloqlarınsa əllərinin çatdığı yalnız sosial şəbəkələrdi, o sosial şəbəkələr ki, orada həqiqətlə yalanı, qara ilə ağı ayırd etmək elə də asan deyil. Yeri gəlmişkən, COVID-19 məsələsində mütəxəssislərin də fikirləri həmişə üst-üstə düşmür. Bunu ölümcül virus kimi qəbul edənlərlə yanaşı, xəstəliyi adi sətəlcəm sayanlar da var.

Yaxud götürək istifadə etmədiyimizə görə qınanıldığımız maska məsələsini. Səhv etmiriksə, təxminən 2 ay ÜST başda olmaqla qərar verə bilmədilər ki, maska nə vaxt taxılmalıdır və ümumiyyətlə, taxılmalıdırmı? Bu günün özündə də maskadan istifadəyə mütəxəssislər arasında münasibət fərqlidir. Biri deyir, tax, başqası deyir, sağlamsansa, vacib deyil. Elə buna görə də əhalinin çoxu maskanı virusdan yox, cərimədən qorunmaq üçün taxır. İndi də düşüblər süni tənəffüs aparatının üstünə. Hətta aparatın xəstələrin ölümünə səbəb olduğu iddiası ilə çıxış edənlər də tapılır.

Sözsüz ki, bütün bunlar da birbaşa və dolayısı ilə insanların COVID-19-a inamına təsir edir, onu formalaşdırır. Bundan sonra virusun təhlükəsindən nə qədər danışılsa da, tanınmış və tanınmamışların timsalında hansı formada misal çəkilsə də, hər gün qaynayan kütlənin arasından keçib basabas ictimai nəqliyyatla işə gedib-gələn ona laqeyd qalacaq, fikirləşəcək ki, milyonların içində virus gəlib onu tapmayacaq. Və beləcə öz mövqeyində qətiyyətli olacaq, təbii ki, COVID-19-la üzbəüz qalanacan.

Bütün hallarda dünyanı sadəlövh saymağın özü sadəlövhlükdür. O üzdən heç kim - inanan da, inanmayan da bu gün bəşəriyyətin 26-cı pandemiya dövrünü yaşadığını dana bilməz. Bu dövrdən necə çıxmaq isə hər kəsin öz əlindədir.

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***



# İÇƏRİŞƏHƏR



● Bakı əsilzadələri

# Bakıxanovlar

**Bu məşhur soyadın nümayəndələri arasında Azərbaycan tarixində, mədəniyyətində, incəsənətində cığır açanlar, şöhrət qazanıb ad qoyanlar çoxdur.**

**Tarixçilərin tədqiqatlarından belə məlum olur ki, Bakıxanovların əcdadları Bakıya 1592-ci ildə gəliblər. Bu soyun tanınmış nümayəndələrindən birinin - Abbasqulu ağa Bakıxanovun sözlərinə görə, onlar bu şəhərə Gilandan Malati hökmdarı Sultan Əhməd xanın səltənətinin sonu mənasına gəldiyi aydın olan "Xan Əhməd məsələsi"ndən sonra köçüblər.**



Abbasqulu ağa Bakıxanov Bakı xanlarının əcdadları Təbəristanda hakim olan Nur və Kucur hökmdarlarından, yəni Paduspanilərdən gəldiyini iddia edib. Məmmədhüseyn bəy və oğlu Heybət bəy sülalənin ilk tanınmış üzvləri idi. Daha sonra tarixdə adı çəkilən Dərgahqulu bəy isə Heybət bəyin böyük oğlu idi. O, Maştağada şəhəri ələ keçirib və Səfəvilərin təyin etdiyi sultanı öldürüb. Dərgahqulu bəy bundan sonra özünü xan, Səlim bəyi Abşeronun naibi təyin edib.

Qazıqumuqlu Surxay xanın, sonra isə Şirvanlı Hacı Davudun qüvvələrini məğlubiyyətə uğradaraq hakimiyyətini Şabran və Qobustanadək genişləndirib. Ancaq bu qalibiyyət onun üçün ağrı-acısız olmayıb. Döyüşdə kiçik qardaşı Hüseyni itirib.

1723-cü ildə Dərgahqulu bəy 700 əsgərlə birlikdə Mixail Matyuşkinə qalanı təslim edib. Bundan sonra Rusiya imperiyası onu yerli hökmdar kimi qəbul edib.

Dərgahqulu bəyin nəslindən olan Mirzə Məhəmməd 1747-ci ildə müstəqil xan rütbəsinə yüksəlib. Həmin tarixdən başlanan Bakı xanlığı 1806-cı ilədək davam edib.

Bakıxanovlar Azərbaycanın ən böyük nəsillərindən biri hesab olunur. Bu nəslin ən böyük qolu isə Mirzə Məhəmmədin adı ilə bağlıdır. Rusiya imperiyasına xidmət edən xanlar, generallar, zabitlər də bu qoldan çıxıblar.



Nəslin kiçik qolunun üzvləri isə Dərgahqulu bəyin qardaşı Hüseyncandan gəlirdi. Sovet hakimiyyəti illərində də, Azəbaycanın müstəqillik illərində də bu qolun nümayəndələri arasından elm adamları, musiqiçilər, sənətçilər çox olub.

Tədqiqatçılar Bakıxanovlar nəslinin şöhrətinin Mirzə Məhəmməd xan Sanidən başladığını yazıblar. Bakı və Quba xanlıqlarının Rusiyaya yaxınlaşmasında onun xidmətlərinin böyük olduğu da xüsusi qeyd olunub. Mirzə Məhəmməd xan Saninin bu xidmətəri əvəzsiz qalmayıb. Məhz buna görə 1824-cü ildə Qafqaz baş komandanı Yermolov Quba əyalətində 7 kəndi - Əmsar, Hacı Qaraqaşlı, Rustov, Qaraqaşlı, Şıxnəzərli, Qarabağlı və Qulamlı kəndlərini ona bağışlayıb. Mirzə Məhəmməd xan Saninin xüsusi mülkiyyətinə daxil edilən həmin kəndlər xəzinənin hər cür vergilərindən azad olunub.

Mirzə Məhəmmədgil iki qardaş olublar. Araşdırmalardan məlumdur ki, onun qardaşı Əbdürrəhim ağa Sisianovun Bakıya səfəri ərəfəsində ailəsini Bakıda təhlükə altında qoyaraq Şamaxıya generalın xidmətinə yollanıb.

Mirzə Məhəmməd altı oğul atası idi. Onların hamısı da atası kimi rus hərbi dairələrində xidmət göstərib. Mirzə Məhəmmədin böyük oğlu Abbasqulu ağa rus və Şərq dillərini mükəmməl bilib, Şərq tarixinə yaxından bələd olub. Bütün bunlar Tiflisdə hərbi komendantlıq nəzdində tərcüməçi işlədiyi illərdə Qafqazın hərbi dairələrində Abbasqulu ağaya böyük şöhrət gətirib. Abbasqulu ağa Bakıxanov nümunəvi xidmətində polkovnik rütbəsinədək yüksəlib.

Bakıxanovların başqa bir nümayəndəsi, rus ordusunun generalı Cəfərqulu ağa Abbasqulu ağanın anabir qardaşı idi. Vuruşmalarda hər zaman fərqlənən Cəfərqulu ağa orden və medallarla təltif olunub. 1826-1828-ci illər rus-İran müharibəsində isə o, göstərdyi qəhrəmanlığa görə üçüncü dərəcəli "Müqəddəs Anna" ordeninə layiq görülüb. 1867-ci ildə istefaya çıxıb. Cəfərqulu ağa bundan sonra Qubada atasından qalma təsərrüfatı idarə edib.

Mirzə Məhəmmədin ikinci arvadından olan övladları Qədir ağa və Mustafa ağa da rus ordusunda xidmət ediblər. Qədir ağa kapitan, Mustafa ağa isə general-mayor rütbələrinə yüksəliblər.

Mirzə Məhəmmədin nəvələri də onun yolunu davam etdiriblər. Cəfərqulu ağanın oğlanları - Həsən ağa və Əhməd ağa ömürlərinin axırınadək rus ordusunda xidmət göstəriblər. General Həsən ağa Bakıxanov Qafqaz ordusundakı xidmətlərinə görə, xeyli orden və medalla təltif olunub. Cəfərqulu ağanın kiçik oğlu Əhməd ağa Bakıxanov isə orduda qvardiya-polkovniki rütbəsi ilə xidmət edib. Onların Nurcahan adlı bir bacıları da olub.

Cəfərqulu ağanın hər iki oğlu əmilərinin - Abbasqulu ağanın kürəkəni olub. Belə ki, Həsən ağa onun qızı Nisa Bəyimlə, Əhməd ağa isə Tuğra xanımla evlənib. Ədəbiyyatı çox sevən Tuğra xanım şeirlər də yazıb. Abbasqulu ağanın oğlu olmayıb.

Bakıxanovlar yalnız hərbi işlərdə uğurları ilə ad qazanmayıblar. Onlar maarifpərvərliklərinə, ölkənin mədəni həyatı ilə yaxından maraqlandıqlarına görə də hörmət sahibi olublar. Bunu təsdiq edən faktlardan biri də Mirzə Məhəmməd xanın kiçik oğlu, general-mayor Abdulla ağanın "Əkinçi" qəzetinin yaradıcısı Həsən bəy Zərdabi ilə yazışmalarıdır. Həsən bəy Zərdabiyə Qubadan göndərdiyi 1875-ci il 19 iyun tarixli məktubunda Abdulla ağa yazırdı: "Sizə başladığınız bu işdə müvəffəqiyyətlər diləyirəm. Doğrudur, əvvəllər bəzi uğursuzluqlar olacaqdır. Bundan ötrü ruhdan düşməməli, həmişə olduğu kimi, bu xeyirli işi davam etdirməlisiniz".

Abdulla ağa Azərbaycanın bu ilk milli mətbu orqanının fəaliyyətinə icazə alınmasında yerli hakimiyyət orqanları vasitəsilə əlindən gələn köməyi edib. Abdulla ağa kimi qardaşı Əhməd ağa da "Əkinçi" qəzetinin nəşrə başlamasına həm mənəvi, həm də maddi kömək göstərib.

Böyük Bakıxanovlar nəslinin adı, şöhrəti yalnız keçmişdə, tarix kitablarında qalmayıb. Onların davamçıları bu gün də az deyil. Bir çox Bakı kəndində bu sülalənin nümayəndələri var. Bakı şəhərində yaşayan Bakıxanovlar isə indi də Azərbaycanın mədəni həyatında böyük xidmətləri ilə tanınırlar.

Ümumiyyətlə, Bakıxanovların Azərbaycan musiqi sənətinin inkişafında xidmətləri təqdirə və tərifəlayiqdir. Tarzənlər Əhməd, Məmmədxan, kamançaçalan, muğam ifaçısı Tələt, musiqiçi Akif, bəstəkar Tofiq Bakıxanovların hər birinin adı musiqi tariximizdə xüsusi yer tutur.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Dini memarlıq abidələri

# Bəylər məscidi

**Qədim Bakının inkişaf mərhələlərini nəzərdən keçirsək görərik ki, bu şəhər müxtəlif din və həyat tərzlərinin bir-birini əvəz etməsi nəticəsində mənəvi mədəniyyətin mənbəyi olmuşdur. VII əsrin birinci yarısında Azərbaycanın bütün şəhərlərində, o cümlədən atəşpərəstlərin nüfuzlu dini mərkəzi sayılan Bakıda İslam dininin yayılması geniş vüsət almışdı. Burada çoxsaylı dini memarlıq abidələri - məscid, təkyə, məktəb-məscid və türbələr inşa edilmişdir.**



İçərişəhərin şimal-qərbində, Şirvanşahlar Sarayının Murad darvazasının yaxınlığında dini tikililər arasında Bəylər məscidi yerləşir. 1895-ci ildə inşa olunan məscid yerli əhəmiyyətli tarixi-memarlıq abidəsidir. Bu sənət incisi Bakının məşhur bəylərinin sifarişi ilə tikildiyi üçün bu adı almışdır. Məscidin inşasında Məhəmməd Haşim Əl-Bakuinin oğulları Hacıbaba və Hacı Cavad, eləcə də məşhur milyonçu Ağa Murtuza Muxtarov, xəttat İbrahim Şirvani, Mir Əli ən-Nağı, Mir Tağı, usta-memar Seyid Hüseyn də iştirak etmişdilər.

İçərişəhər ərazisində inşa olunan bu sonuncu məscid zalın böyüklüyünə və tikinti quruluşuna görə digər dini abidələrdən fərqlənir. Onun inşasında Avropa, Şərq, eləcə də yerli memarlığın konstruktiv prinsiplərindən istifadə olunub. Mükəmməl görünüşlü minarənin yuxarı hissəsi Qərbi Avropaya xas olan dekorativ elementlərlə bəzədilib. Məscidin zalında və mehrabında mükəmməl bədii daşyonma sənəti nümunələrindən məharətlə istifadə edilib. Memarlıq abidəsi qədim məscidin yerində tikilib və əyri xətt şəkilli küçənin planlaşdırılma xüsusiyyətinə uğurla daxil edilb.

Bəylər məscidində bərpa və konservasiya işləri "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin dəvət etdiyi avstriyalı məşhur bərpaçı ekspert Erix Pummer tərəfindən aparılıb. 2014-2015-ci illərdə görülən işlər zamanı məscidin bərpasında "İçərişəhər Ənənəvi İncəsənət Mərkəzi" də iştirak edib, qapı və pəncərələri memarlıq elementləri ilə bəzəyib. Nəticədə təyinatına uyğun muzeyləşdirilən məsciddə "Müqəddəs əmanətlər" ekspozisiyası yaradılıb.



Burada İslam dininin müqəddəs əmanəti olan müxtəlif dövrlərə aid qədim "Qurani-kərim" kitabları nümayiş etdirilir. Ziyarətçilər 73 Quran, 7 dini kitab, 19 dini atribut, ümumilikdə, 99 eksponatla tanış ola bilirlər. Yanğından hifz olunan kitabların vərəqləri, Dərbənd məscidinə aid və onun axundu tərəfindən divara hörülərək qorunan Quran, eləcə də Quranın cüzləri ekspozisiyada diqqəti cəlb edən eksponatlardır.

Azərbaycanın müxtəlif regionlarından əldə edilən müqəddəs əmanətlər yanğına məruz qalan kitabxanalardan və şəxsi mülklərdən toplanmışdır.

***"Azərbaycan"***

● Yeraltı su anbarları

# İçərişəhərin ovdanları





**Bakıda, İçərişəhərdə, onun ətrafında və Abşeronda bir sıra ovdanlar - süxur və kəhriz sularını toplamaq və saxlamaq üçün yeraltı qurğular aşkar edilmişdir. Ovdanların və içməli su quyularının tikilməsi bütün Şərqdə olduğu kimi, Azərbaycanda da nəcib və xeyirxah iş sayılmışdır.**

Ovdanları tikənlər və onların tikilmə tarixləri, adətən, bu qurğuların girişindəki kitabələrdə əks etdirilirdi. Onların girişləri memarlıq baxımından çatma tağlı baştağ şəklində düzəldilirdi. Ovdanlar torpaqda qazılmış, yaxud bərk süxurlarda oyulmuş pillələrlə düşülən maili lağımlardır. Lağımın qurtaracağında kəhriz sularının toplandığı çarhovuz olur. Onların üstü müxtəlif cür, bəzən çatma tağla örtülür.

İçərişəhərdə Şirvanşahlar sarayının və keçmiş gömrükxananın yaxınlığında ovdanlar var idi. Onlardan biri haqqında Qafqaz tarixinin tədqiqatçısı Semyon Bronevski belə məlumat verir: "Şəhərin şimal divarından təqribən 300 addım aralıdakı əhalini su ilə təmin edən qədim quyu diqqətəlayiqdir. O, çox böyük çətinliklə daş təbəqəsində 45 sajın dərinliyində qazılmışdır və bir sajın böyüklükdə kvadratşəkilli ağzı var. Ora girdikdən sonra suya qədər dik pillələrlə düşmək lazımdır. Pilləkənin qurtaracağında olduqca iri zağa oyulmuşdur. Onun ortasında hovuz vardır ki, oradan təmiz bulaq suyu götürürlər". Təsvir olunan ovdan təəssüf ki, dövrümüzədək qalmamışdır.

### "Şirin" ovdan

İçməli şirin su içərişəhərlilər üçün həmişə problem məsələ olmuşdur. Zaman-zaman buraya dağlıq hissədən üç kəhriz su qolu çəkilmişdir. Bu su qolları İçərişəhərdəki üç ovdanı doldururdu və onları "şirin ovdan" adlandırırdılar.

Bu ovdanlardan biri Şirvanşahlar sarayının aşağı hissəsində Cin məscidinin yaxınlığında yerləşir. İkinci ovdan "Salyan" qapısı yaxınlığında, çöl tərəfdə yerləşir. Arxeoloji axtarışlar zamanı bu ovdan üzə çıxarılmış və konservasiya edilmişdir. Üçüncü ovdan Şeyx İbrahım məscidinin yaxınlığındadır. Şəhərə dağlıq hissədən gələn su bu ovdanlara axıdılır və İçərişəhərin müxtəlif məhəllələrinə paylanırdı.

***"Azərbaycan"***

● Gözəllik məkanı

# 190 yaşlı "Qubernator bağı"

**Bakının mərkəzində, Qala divarları yaxınlığında 1830-cu ildə salınmış Qubernator bağı şəhərin uzun müddət ilk və yeganə istirahət məkanı olub.**





Salındığı gündən bu bağa müxtəlif adlar qoyulub. İlk vaxtlar "Qorodskoy sad" - "şəhər bağı" kimi tanınan ərazi sonra II Nikolayın qardaşı Mixailin adına olub - "Mixaylovski sad". Lakin şəhər sakinləri buraya nadir hallarda "Mixail bağı" deyirdilər. Onlar bu ərazini daha çox "Qubernator bağı" - "Qoburnat bağı" adlandırıblar. Bu da ona görə idi ki, Qubernatorun evi bağla üzbəüz yerləşirdi. O, hər gün eyvanda oturub çay içə-içə bağı seyr edirmiş. Sovetlər dövründə ad dəyişdirilərək "Pioner" qoyulub. Bağda şair Əliağa Vahidin büstü yerləşdirildikdən sonra isə hamı buranı "Vahid bağı" adlandırıb və elə də tanıyıb. Ən sonuncu yenidənqurmadan sonra bağ möhtəşəm tikili olan Filarmoniyanın adı ilə çağırılmağa başlanıb.

190 yaşlı Filarmoniya bağı İçərişəhər hələ iki divar əhatəsində olan vaxt salınıb və maraqlı yaranma tarixi var. Bakı komendantı R.R.Xoven İrandan gələn bütün gəmi sahiblərinin qarşısına hərəyə bir neçə çuval qara torpaq gətirmək barədə şərt qoyur. Deyilənə görə, şərti pozanlar, yəni torpaq gətirməyənlər ciddi şəkildə cərimələnirdilər.

Torpaq sahildə bir yerə tökülür və onun yayıldığı bu ərazidə bitkilərin çeşidi zənginləşdirilir, beləliklə Filarmoniya bağı şəhərin "yaşıl adası"na çevrilir. Bağda əvvəlcə meyvə ağacları yetişir, sonra bəzək kolları. Gündən-günə gözəlləşən bağa, deyilənə görə, sadə şəhərlilərin girişi həftənin bir günü ilə məhdudlaşdırılırdı. Yüksək vəzifəli şəxslər və neft milyonçuları, sahibkarlar üçün isə qapılar həmişə açıq olurdu. 1859-cu ildə bağda yenilik edilir. Rəqs meydançası düzəldilir, axşamlar orkestr çalmağa başlayır. Sahəsi 4,6 hektar olan bağa qulluq xərclərini də şəhər rəhbərliyi öz üzərinə götürür.

Vaxtilə indiki "İçərişəhər" metrosunun yaxınlığında- Bakı İctimai Məclisinə məxsus taxtadan bir pavilyon var imiş. Əhənglə ağardıldığı üçün bura "Ağ klub" deyirmişlər. Bu məkan əsasən Bakı varlılarının əyləncə yeri kimi tanınırmış. 1907-ci ilin bir yaz gecəsi tikili yanıb külə dönür. O zaman Bakı İctimai Məclisi öz üzvlərinin "asudə vaxtının səmərəli təşkili məqsədilə" yanan klubun əvəzinə yay klubu tikdirmək istəyir. Bu məqsədlə şəhər rəhbərliyinə müraciət edir. Lakin bu istək neçə il etirazla qarşılanır. Dövlət Tarix Arxivində qorunan sənədlər içərisində məsələ ilə bağlı Bakı varlılarının ərizələri də saxlanılır. Məsələn, hələ 1880-ci ilin oktyabrında şəhər sakini Nikolay Osipov, 1881-ci ilin aprelində bir qrup Bakı varlısı, o cümlədən Z.Tağıyev, De Bur və başqaları müraciətlərində orada, hətta teatr binasının tikiləcəyini göstəriblər və hamısı da rədd cavabı alıb. Şəhər rəhbərliyi səbəb kimi hər dəfə bağda ağacların kəsiləcəyindən narahatlığını göstərib, burada uzun müddət tikinti işlərinin aparılmasının bitki aləminə ziyan vuracağını xatırladıb. Nəhayət, uzun xahişnamələrdən, müzakirələrdən sonra birtəhər razılıq alınır. O vaxt bura şəhərin həm sərin, həm də havası nisbətən təmiz olan yeri imiş... İctimai Məclis layihənin hazırlanmasını mülki mühəndis Q.Termikeilova həvalə edir. Deyilənə görə, binanın memarı Monte-Karlo şəhərinə ezam edilir ki, orada gözəllikdə Avropada birinci yeri tutan filarmoniyaya baxıb Bakı üçün də eynilə belə bir layihə işləsin. Beləliklə, Şəhər Dumasının qərarı ilə bu ərazidə yay klubunun tikintisinə başlanılır. "İctimai iclasların yay evi" adı ilə 1910-cu ildə başlanan inşaat işləri 1912-ci ildə başa çatır. Bununla da "Qubernator bağı"nın sonralar "Filarmoniya bağı" adlanmasına səbəb olacaq bina tikilir. 1936-cı ildə isə Azərbaycan Dövlət Filarmoniyası yaradılır. Vaxtilə Bakı İctimai Məclisinin tikdirdiyi "Yay evi" Filarmoniyaya verilir. Yeri gəlmişkən, qeyd edək ki, Filarmoniya o vaxtlar "Qubernator bağı" adlanan istirahət məkanının şöhrətini daha da artırır.

Bağda əsaslı yenidənqurma işlərinə 2009-cu ildə başlanılıb. Bağın özünəməxsus bitki örtüyü olduğu kimi qorunub saxlanılıb, yaşıllıq zolağının artırılmasına daha çox diqqət yetirilib. 1865-ci ildə burada əkilən dekorativ bitkilər öz gözəlliyi ilə diqqəti çəkir, yeni ağac və gül kolları da bağdakı yaşıllıq zolağına, ümumilikdə isə, park elementlərinə əlavə çalar qatır. Yenidənqurma zamanı burada nadir ağac növləri - palıd, sidr və göyrüş ağacları əkilib, yeni suvarma sistemi quraşdırılıb, ərazi müxtəlif bitkilərlə zənginləşdirilib, gözəl landşaft kompozisiyaları yaradılıb. Ən qədim ağaclardan biri də Xan çinarıdır. Hətta Filarmoniya bağında aparılan təmir-bərpa işləri zamanı qədim yeraltı tunelin aşkarlandığı da bildirilir.

Özündə İtaliya intibahının elementlərini, Şərq müsəlman memarlığının cizgilərini, eləcə də milli ornamentləri birləşdirən bağda hamını heyran qoyan gözəl naxışlı daşlar, fəvvarələr, saatlar var. İçərişəhərin klassikası olan Filarmoniya bağı 190 ildir ki, insanların istirahətinə xidmət edir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

azərişıq
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

Azərbaycan xalqını

# 26 İyun - Silahlı Qüvvələr Günü

münasibətilə təbrik edir,
firavan gələcək arzulayır!





GCM GLOBAL ENERGY AZERBAIJAN

"Global Energy Azerbaijan"
şirkəti və onun törəmə şirkətləri

"Absheron Operating Company"
"Binagadi Oil Company"
"Karasu Operating Company"
"Shirvan Operating Company"
"Neftechala Operating Company"

26 İyun - Silahlı Qüvvələr Günü

münasibətilə Azərbaycan xalqını təbrik edir, işğal altında olan torpaqların tezliklə azad olunmasını arzulayır!

## Açıq Səhmdar Cəmiyyəti "Standard Insurance" Sığorta Şirkətinin müflis elan olunması ilə bağlı məhkəmə baxışı barədə əlavə məlumat

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 19.05.2020-ci il tarixli 24 nömrəli qərarı ilə Bakı şəh., Nəsimi ray., Şəmsi Bədəlbəyli, 94 ünvanında yerləşən Açıq Səhmdar Cəmiyyəti "Standard Insurance" Sığorta Şirkətinin sığorta fəaliyyətinin həyata keçirilməsi üçün verilmiş lisenziyası ləğv edilmiş və Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən sığortaçı barəsində iflas prosedurunun başlanılmasına dair ərizə ilə məhkəməyə müraciət edilmişdir.

Açıq Səhmdar Cəmiyyəti "Standard Insurance" Sığorta Şirkətinin müflis elan olunması ilə bağlı 23 iyun 2020-ci il tarixdə keçirilməsi nəzərdə tutulmuş məhkəmə baxışı xüsusi karantin rejiminin sərtləşdirilməsi ilə əlaqədar olaraq təxirə salınmışdır. Məhkəmə baxışı 06 iyul 2020-ci il tarixdə saat 12:30-da Bakıxanov qəsəbəsi, Oskar Əfəndiyev küçəsində yerləşən Bakı Kommersiya Məhkəməsində keçiriləcəkdir.

*İdarə Heyəti*

## Ağstafa Rayon İcra Hakimiyyəti Ağstafa rayonunda abadlaşdırma xidmətləri haqqının ödənilməsi üzrə *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 06 iyul 2020-ci il saat 12:00-dan gec olmamaq şərtilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.Kotirovka təklifləri Ağstafa Rayon İcra Hakimiyyəti, Ağstafa şəhəri, Hüseyn Arif küçəsi, 3 ünvanında 07 iyul 2020-ci il saat 12:00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

**Əlaqələndirici şəxs: Sənan Mustafayev**
**Telefon: 0222251205**

*Tender komissiyası*

# Bəzi bölgələrdə leysan yağacaq, dolu düşəcək

Azərbaycanda iyunun 26-na gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, səhər bəzi yerlərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Arabir güclənən şimal-qərb küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 21-24°, gündüz 25-28°, Bakıda gecə 21-23°, gündüz 25-27° isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunundan 762 millimetr civə sütununa yüksələcək, nisbi rütubət 65-75 faiz təşkil edəcək.




Abşeron çimərliklərində arabir güclənən şimal-qərb küləyi əsəcək. Dəniz suyunun temperaturunun Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 21-22°, Türkan, Hövsan, Sahil, Şıxda isə 23-24° isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında şimşək çaxacağı, arabir yağış yağacağı, əsasən şimal və qərb rayonlarında leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 30-34° isti, dağlarda gecə 10-15°, gündüz 18-23° isti olacağı ehtimal edilir.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, iyunun 26-da Abşeron yarımadasında xəzri küləyinin arabir güclənəcəyi gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Lakin axşama doğru bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı, dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturu gecə 15-20°, gündüz 30-35° isti olacaq.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən, Gədəbəy rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 10-15°, gündüz 18-23° isti olacağı proqnozlaşdırılır.

Gəncə şəhərinin, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarının bəzi yerlərində gün ərzində şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 30-34° isti olacağı bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Səhər dağlarda duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 17-22°, gündüz 25-30° isti, dağlarda gecə 10-15°, gündüz 15-20° isti olacağı ehtimal edilir.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarının bəzi yerlərində şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi proqnozlaşdırılır. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 30-34° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı ehtimal edilir. Səhər dağlarda duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 17-20°, gündüz 28-33° isti, dağlarda gecə 17-20°, gündüz 23-28° isti olacağı ehtimalı var.

## Gömrük orqanlarının vəzifəli şəxslərinin qanunsuzəməlləri ilə bağlı istintaq-əməliyyat tədbirləri davam etdirilir

Azərbaycan Prezidenti tərəfindən uğurla həyata keçirilən kompleks islahatlar çərçivəsində dövlət idarəçiliyinin bütün sahələrində şəffaflığın təmin olunması sahəsində kompleks, sistemli və ardıcıl tədbirlər həyata keçirilməkdədir. Bu istiqamətdə qarşıya qoyulmuş vəzifələrin icrası məqsədilə öz qanunazidd şəxsi maraqlarını güdməklə dövlət məmurunun peşəkar davranış qaydalarına və yüksək etik normalara riayət etməyən, korrupsiya cinayətləri törətmiş vəzifəli şəxslərin qanun qarşısında ifşa və məsuliyyətə cəlb olunması istiqamətində prokurorluq orqanları tərəfindən silsilə tədbirlər davam etdirilməkdədir.

Baş Prokurorluğun və Dövlət Gömrük Komitəsinin mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin Enerji resursları və dəniz nəqliyyatında Baş Gömrük İdarəsinin Tranzit şöbəsinin rəisi vəzifəsində çalışan Ceyhun Babayevin qanunsuz hərəkətləri barədə Dövlət Gömrük Komitəsindən daxil olmuş müraciət Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

Baş Prokurorluq və Dövlət Gömrük Komitəsi tərəfindən birgə keçirilmiş əməliyyat tədbirləri nəticəsində Ceyhun Babayev daşıma fəaliyyəti ilə məşğul olan "Gate Est Group" MMC və "Interlogistics" MMC-nin səlahiyyətli nümayəndəsindən MMC-lərə məxsus malların tranzit gömrük rəsmiləşdirilməsinin tezləşdirilməsi müqabilində rüşvət kimi tələb etdiyi hər avtomaşına görə 50 ABŞ (85 manat) dolları olmaqla, ümumilikdə isə, 15 avtomaşına görə 750 ABŞ dolları (1275 manat) məbləğində pulu iyunun 23-də alarkən cinayət başında yaxalanıb.

Faktla bağlı cinayət işi başlanılaraq Ceyhun Babayevə Cinayət Məcəlləsinin 311.1-ci (rüşvət alma) maddəsində nəzərdə tutulmuş ittiham elan olunub və barəsində məhkəmənin qərarı ilə dörd ay müddətinə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə həmin qanunsuz halların tam, hərtərəfli yoxlanılmaqla təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 30.06.2020-ci il tarixində gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

## ALLAH RƏHMƏT ELƏSİN!

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin əməkdaşı

**AZAD ZEYNALOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Hacıqabuldan Hacıməhəmməd Hacıyev, Şirvan şəhərindən Taleh Ağayev Mərkəzi Seçki Komissiyasının sədr müavini Rövzət Qasımova əzizi

**DURNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7376
Sifariş 1611
Qiyməti 40 qəpik